Xalqın qəzeti!
# Xalq qəzeti
№ 224 (30340) 14 oktyabr 2023-cü il, şənbə
Gündəlik ictimai-siyasi nəşr
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti
xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham ƏLİYEV:**

**Azərbaycanın MDB məkanında, habelə regional və ikitərəfli əlaqələr çərçivəsində irəli sürdüyü təşəbbüslər təhlükəsizliyin, sabitliyin, əməkdaşlığın möhkəmlənməsinə xidmət edir.**

# Suveren dövlətlərin ortaq tərəfdaşlıq məkanı

## Prezident İlham Əliyev Bişkekdə MDB Dövlət Başçıları Şurasının iclasında iştirak edib




**Oktyabrın 13-də Bişkekdə Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclası keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

Qırğız Respublikasının Prezidenti Sadır Japarov Azərbaycan Prezidenti İlham Əliyevi və digər dövlət başçılarını qarşıladı.

İclasda iştirak edən dövlət başçıları birgə foto çəkdirdilər.

Əvvəlcə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası keçirildi.

**Qırğızıstan Prezidenti Sadır Japarov dedi:**

– Çıxış üçün söz Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə verilir. İlham Heydər oğlu, buyurun, söz Sizindir.

*(ardı 2-ci səhifədə)*

# Biz evsizə sığınacaq, aca çörək veririk

**Məgər 2023-cü il sentyabrın 19-da Azərbaycan "Dağlıq Qarabağa qarşı hərbi əməliyyat" həyata keçirib? Doğrudanmı, "100.600 erməni "öz vətənini" fiziki məhvolma təhdidi və Azərbaycan hökumətinin anti-erməni siyasəti" ucbatından tərk edib? AŞPA "Qarabağda etnik təmizləmədə əsaslandırılmış şübhələrin mövcud-luğunu" təsdiqləyə biləcək hansı sübut və faktları ortaya qoya bilər?**



Assambleya "Azərbaycanı Dağlıq Qarabağın erməni əhalisinin geri qayıtmasını və onların hüquqlarının qorunmasını təmin etmək üçün təxirəsalınmaz tədbirlər görməyə" çağırarkən, görəsən, hansı siyasi, yaxud demoqrafik məntiqdən çıxış edib? AŞPA-nın məlum qətnaməsinə səs verən ölkələrin nümayəndələrinin gözləri kor, dilləri lal, qulaqları kardırmı? Yox, əgər bu qabiliyyətlərini hələ itirməyiblərsə, bu fotoşəklə diqqətlə baxmalarını məsləhət görərdik.

Avropa Şurası Parlament Assambleyası (AŞPA) 2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağda antoterror tədbirini pisləyən "Dağlıq Qarabağda humanitar vəziyyət" adlı qətnamə qəbul edib. AŞPA-nın tövsiyəsi bu ad altındadır. Qətnamədə guya Qarabağın erməni əhalisinin fiziki "məhv olmaq" təhlükəsi və Azərbaycan hakimiyyətinin "ermənifobiya siyasəti" səbəbindən öz vətənini tərk etdiyi göstərilir. "Etnik təmizləmə", "artsax xalqının fiziki məhv edilmə təhlükəsi", Azərbaycanın "hərbi təcavüzü" və bu kimi bitib-tükənməyən saxta terminologiya ilə müşayiət olunan uydurma ittihamlar.

*(ardı 4-cü səhifədə)*

# "Gizli müharibə" həm can alır, həm də yurda qayıdışı ləngidir

Səhifə ⇨ 6



# Yaxın Şərq: Kəssə hər kim tökülən qan izini...

**HƏMAS-İsrail qarşıdurmasının başlanmasından artıq bir həftə ötür. Hər iki tərəfdən ölən və yaralananların sayı artır. Bu kəskin qarşıdurmanın nə vaxt bitəcəyi isə heç kəsə məlum deyil. Təəssüf ki, hazırda böyük güc mərkəzləri sülh ritorikasını çox az hallarda dillərinə gətirirlər.**

Amma son illər ərzində planetdə öz qətiyyətli və ədalətli siyasətilə böyük nüfuz qazanan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dəfələrlə tərəflər arasında vasitəçilik missiyasını həyata keçirməyə hazır olduğunu bəyan edib. Üstəlik, rəsmi Ankara bu istiqamətdə konkret addımlar atmağa başlayıb.

*(ardı 11-ci səhifədə)*

# Asiya İnkişaf Bankı ilə əməkdaşlıq çoxşaxəli və səmərəlidir

Səhifə ⇨ 7

# Ədalətin təntənəsi



Səhifə ⇨ 5

# AŞPA-nın "qətnamə" məntiqi və ya ermənipərəstlik sindromu




**"Avropa Şurasının Parlament Assambleyası Azərbaycan ərazisinin xeyli hissəsinin hələ də Ermənistan silahlı qüvvələri ilə mübarizədə olduğunu və Dağlıq Qarabağa hələ də separatçı qüvvələrin nəzarət etdiyini bildirir. Qurum, eyni zamanda, hərbi əməliyyatların, bundan əvvəl başlamış və kütləvi xarakter almış etnik zərərçiliyin qorxunc etnik məhsul məfhumunu xatırladır, bir dövlətin ərazisindən regional ərazinin ayrılmasını və onun başqa dövlətə de-fakto birləşdirilməsi halının yaşandığını qeyd edir. AŞPA azlıqların yaşadıqları regional ərazilərin ayrılmaq hüququna malik olan iddiaları rədd edir".**

Ola bilər, 2005-ci il yanvarın 25-də AŞPA-nın qəbul etdiyi "ATƏT-in Minsk Konfransının məşğul olduğu Dağlıq Qarabağ bölgəsindəki münaqişə" adlı 1416 saylı qətnamədəki bu hissələr dəyərli oxucularımızı təəccübləndirdi. Əminik ki, daha böyük təəccüb hissini yazımızı oxuduqca yaşayacaqsınız. Məqalə AŞPA-nın "Dağlıq Qarabağda humanitar vəziyyət" adlı 12 oktyabr 2023-cü il tarixli qətnaməsi və eyni adlı tövsiyəsi barədədir. O qətnamə ki, onun ilk cümləsi 2005-ci ilin analoji sənədini təkzib edir və Azərbaycanın sentyabrın 19-da başladığı və cəmi 23 saat 43 dəqiqə çəkmiş lokal xarakterli antiterror tədbirlərini pisləyir. Nəinki pisləyir, habelə, orada "Dağlıq Qarabağa qarşı hərbi əməliyyatlar" ifadəsi işlədilməklə, bölgəni ayrıca subyekt kimi göstərir. Beləliklə, separatçılığın leqallaşdırılması yolunu tutur. Halbuki, 2005-ci ilin qətnaməsində Qarabağın separatçıların nəzarətində olduğu vurğulanırdı. Hər halda, özünütəkzibin bundan böyük nümunəsi ola bilməz.

*(ardı 3-cü səhifədə)*

# Sumqayıt kitab sərgisində



**Mədəniyyət Nazirliyi, Azərbaycan Nəşriyyatları Assosiasiyası (ANAİB), Sumqayıt Şəhər İcra Hakimiyyəti və Abşeron-Xızı Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə III Sumqayıt Kitab Sərgisi başlanıb.**

Ölkənin 30-dək nəşriyyatının iştirakı ilə təşkil olunan sərgi Kimyaçı Mədəniyyət Sarayında keçirilir. Biz də sərgiyə gedənlərə qoşulub, saraya daxil oluruq. Ayrı-ayrı stendlərə düzülmüş çeşidli kitablar elə ilk baxışdan müasir poliqrafik dizaynı və mövzu rəngarəngliyi ilə seçilir. Kitabsevərlərin çoxluğu da diqqətdən yayınmır.

*(ardı 10-cu səhifədə)*

# Millimiz seçmə mərhələdə ilk qələbəsini qazanıb

Səhifə ⇨ 12



# Prezident İlham Əliyev Bişkekdə MDB Dövlət Başçıları Şurasının iclasında iştirak edib





(əvvəli 1-ci səhifədə)

**Prezident İlham Əliyev iclasda çıxış edərək dedi:**

– Hörmətli Sadır Nurqojoyeviç, hörmətli dövlət başçıları. Əvvəlcə, qonaqpərvərliyə və tədbirin yüksək səviyyədə təşkilinə görə Qırğızıstan Prezidenti Sadır Nurqojoyeviç Japarova təşəkkür etmək istərdim.

Şadam ki, Qırğızıstan və Azərbaycan arasında dostluq və qardaşlıq münasibətləri uğurla inkişaf edir. Dövlət başçılarının qarşılıqlı səfərləri zamanı əldə olunmuş razılaşmalar yerinə yetirilir. Azərbaycan Qırğızıstanda investisiya layihələrini həyata keçirməyə başlayıb. Əməkdaşlığı dərinləşdirmək məqsədilə Azərbaycan-Qırğızıstan İnvestisiya Fondu yaradılıb. Fürsətdən istifadə edərək Qırğızıstan rəhbərliyini ölkənin sosial-iqtisadi inkişafında uğurları münasibətilə təbrik etmək istərdim.

Rusiya Federasiyasının növbəti ildə MDB-də sədrliyinin həyata keçirilməsində hörmətli Vladimir Vladimiroviç Putinə uğurlar diləmək istərdim.

Tədbirimizin əlamətdar hadisəsi Özbəkistan Prezidenti, hörmətli Şavkat Miromonoviç Mirziyoyevin MDB-nin Fəxri Nişanı ilə təltif edilməsidir. Şavkat Miromonoviçi bu layiqli mükafata görə təbrik edirəm. Qardaş Özbəkistanla bağlı olan digər mühüm hadisə Səmərqənd şəhərinin 2024-cü ildə "Birliyin mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı qərardır.

Humanitar sahə bizim Birliyin çərçivəsində əsas istiqamətlərdən biridir. Azərbaycan bu sahədə əməkdaşlığımızın inkişafına böyük töhfə verir. Azərbaycanın 2025-ci ildə üçüncü MDB Oyunlarının keçirilməsi üzrə namizədliyini dəstəklədikləri üçün həmkarlarıma minnətdarlığımı bildirmək istərdim.

Əminəm ki, üçüncü MDB Oyunları idman sahəsində əməkdaşlığımızı möhkəmləndirməklə yanaşı, Birlik məkanında uğurlu qarşılıqlı fəaliyyətimizin daha bir nümayişi olacaq.

Fürsətdən istifadə edərək, Belarus Prezidenti, hörmətli Aleksandr Qriqoryeviç Lukaşenkonu ikinci MDB Oyunlarının uğurla keçirilməsi münasibətilə təbrik etmək istərdim.

Hörmətli həmkarlar, iqtisadi əlaqələrimizin möhkəmlənməsi müsbət nəticə verir. Keçən il Azərbaycan ilə MDB ölkələri arasında əmtəə dövriyyəsinin həcmi təxminən 30 faiz artıb. Bu il artım 20 faizdən də çoxdur.

Azərbaycan MDB-nin bir çox ölkələri üçün tranzit-nəqliyyat sahəsində etibarlı tərəfdaşdır. MDB-nin bir çox üzv ölkələri Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzrə Azərbaycanın tranzit imkanlarından fəal istifadə edirlər. Bu iki nəqliyyat dəhlizinin ötürmə qabiliyyətinin genişləndirilməsi üzrə həyata keçirilən və perspektiv layihələr ölkələrimizin nəqliyyat təhlükəsizliyinin möhkəmlənməsi işinə və əmtəə dövriyyəsinin artırılmasına xidmət edəcək.

Bir daha tədbirin yüksək səviyyədə təşkilinə görə Qırğızıstan Prezidentinə təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, sammitin nəticələri gələcəkdə əməkdaşlığımızın möhkəmlənməsinə xidmət edəcək.

Diqqətinizə görə təşəkkür edirəm.

**Prezident Sadır Japarov:** Sağ olun, İlham Heydər oğlu.

*

Sonra MDB Dövlət Başçıları Şurasının iclası işini geniş tərkibdə davam etdirdi.

Qırğızıstan Prezidenti Sadır Japarov iclasda aparılan müzakirələrin MDB-yə üzv ölkələr arasında əməkdaşlığın inkişafına töhfə verəcəyini vurğuladı. Sadır Japarov MDB-yə sədrliyin Qırğızıstandan Rusiyaya keçdiyini elan etdi.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ölkəsinin MDB-yə sədrliyi dövründə prioritet hədəfləri barədə məlumat verdi. Vladimir Putin MDB Dövlət Başçıları Şurasının növbəti iclasının gələn ilin oktyabrında Moskvada keçiriləcəyini vurğuladı.

İclasda çıxış edən MDB-nin Baş katibi Sergey Lebedev imzalanacaq sənədlər barədə məlumat verdi.

Daha sonra sənədlər imzalandı.

Bununla da MDB Dövlət Başçıları Şurasının iclası başa çatdı.

## İlham Əliyev Şavkat Mirziyoyevin təltifolunma mərasimində



**Oktyabrın 13-də Bişkekdə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin MDB-nin Fəxri nişanı ilə təltif olunması mərasimi keçirilib.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və digər dövlət başçıları tədbirdə iştirak ediblər.

## Dövlət başçılarının şərəfinə rəsmi qəbul

**Oktyabrın 13-də Bişkekdə MDB Dövlət Başçıları Şurasının iclasında iştirak edən dövlət başçılarının şərəfinə rəsmi qəbul təşkil olunub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

## Səfər başa çatıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasına səfəri oktyabrın 13-də başa çatıb.**

Bişkek şəhərinin "Manas" Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini rəsmi şəxslər yola saldılar.

***AZƏRTAC***

## AŞPA-nın ölkəmizə ədalətsiz yanaşması qətiyyətlə rədd edilir

**Avropa Şurasının Parlament Assambleyası (AŞPA) tərəfindən oktyabrın 12-də Azərbaycanın Qarabağ bölgəsi ilə bağlı həqiqət və faktlardan uzaq, erməni təbliğatının əsas elementlərini təkrarlayan, qərəz və yalanlardan qaynaqlanan qətnamə və tövsiyə sənədi qəbul edilib.**

Azərbaycanın AŞPA-da nümayəndə heyəti bununla bağlı etiraz bəyanatı yayıb.

Bəyanatda qeyd edilib ki, bu sənədlərdə regionda mövcud olmuş münaqişənin kökündə dayanan, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları, onun ardınca ölkəmizə münasibətdə törədilmiş hərbi işğal və Azərbaycan əhalisinin etnik təmizləməyə məruz qoyulması tamamilə diqqətdən kənar buraxılıb. Bu, əslində, Avropa Şurasının Azərbaycana göstərdiyi ədalətsiz yanaşmanın növbəti təzahürüdür.

Azərbaycanın 2023-cü il sentyabrın 19-20-də həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərinin məram və məqsədləri təhrif edilərək, ölkəmizə qarşı əsassız iddialar səsləndirilir. Bu mənada, həmin tədbirlərin Azərbaycana qarşı davam edən hərbi təhdidlərin aradan qaldırılması və qanunsuz hərbi birləşmələrin mövcudluğuna son qoyulmasına yönəldiyi göz ardı edilir. Həmçinin Qarabağ regionunun erməni əsilli sakinlərinin Azərbaycan cəmiyyətinə reinteqrasiyası istiqamətində atılan addımlara lazımi qiymət verilmədən, regiondakı gələcək davamlı sülh üçün əlavə manelər yaradılır. Görünən odur ki, Fransa və Avropanın bir sıra digər ölkələrinin ermənipərəst siyasətçiləri erməni lobbisindən ani dividendlər qazanmaq naminə Azərbaycanın regionda başladığı normallaşma prosesinə süni əngəllər törətməyə və ölkəmizin haqq işinə kölgə salmağa çalışırlar.

"AŞPA-da Azərbaycanın nümayəndə heyəti olaraq, ölkəmizə qarşı nümayiş etdirilən bu ədalətsiz yanaşmanı qətiyyətlə rədd edir və bunu Avropa Şurası daxilində demokratik dəyərlərin iflasa uğramasının bariz nümunəsi kimi qəbul edirik", - deyə bəyanatda bildirilir.

**XQ**

## BMT-də Azərbaycanın müəllifliyi ilə qətnamə qəbul edilib

**Oktyabrın 12-də BMT-nin İnsan Hüquqları Şurasının 54-cü sessiyası çərçivəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan tərəfindən irəli sürülmüş və yüzdən çox ölkənin həmmüəllif olaraq qoşulduğu inkişaf hüququ üzrə qətnamə qəbul edilib.**

Bildirilib ki, inkişaf hüququ Qoşulmama Hərəkatı üçün xüsusi əhəmiyyət kəsb edən və hərəkatın gündəliyində önəmli yer tutan əsas mövzulardandır.

Qeyd olunub ki, ölkəmiz Hərəkata sədrliyi dövründə inkişaf hüququnun təşviq edilməsi və hüquqi bazasının gücləndirilməsi istiqamətində çoxsaylı addımlar atıb, inkişaf etməkdə olan ölkələrin mövqeyi və maraqlarının beynəlxalq müstəvidə irəlilədilməsi istiqamətində aktiv və nəticəyönümlü fəaliyyətlər aparıb.

Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının 18-ci Bakı Zirvə Toplantısı (25-26 oktyabr 2019) və Hərəkatın Əlaqələndirici Bürosunun Bakı şəhərində keçirilmiş nazirlər iclasının (5-6 iyul 2023) yekun sənədlərində inkişaf hüququnun təşviqi məsələsinə xüsusi vurğu edilib.



"Şurada qəbul edilmiş bu qətnamə inkişaf hüququ üzrə özündə hüquqi öhdəlikləri ehtiva edən beynəlxalq sənədin ilk dəfə olaraq BMT Baş Assambleyasına təqdim edilməsinə yol açır.

Azərbaycan bundan sonra da BMT, Qoşulmama Hərəkatı və digər çoxtərəfli beynəlxalq formatlarda insan hüquqlarının ayrılmaz hissəsi olan inkişaf hüququnun təşviqində və irəlilədilməsində aktiv fəaliyyətini davam etdirəcək", - deyə məlumatda vurğulanıb.

**XQ**

# AŞPA-nın "qətnamə" məntiqi və ya ermənipərəstlik sindromu

## Qurumun Azərbaycana qarşı qərəzi sivil dəyərləri aşağılamaq üzərində qurulub

**(əvvəli 1-ci səhifədə)**

AŞPA, eyni zamanda bildirir ki, Qarabağın, demək olar, bütün əhalisi fiziki məhv təhlükəsi və Azərbaycanın anti-erməni siyasəti səbəbindən öz vətənlərini tərk edib və burada etnik təmizləməyə əsaslı şübhə var. Birincisi, "Vətən" anlayışının hansı əraziyə şamil edildiyi maraqlıdır. Hər halda, qurumun Azərbaycanı nəzərdə tutmadığını söyləmək üçün əsaslar kifayət qədərdir. Digər yandan, sırf bu deyimdə də 2005-ci ilin qətnaməsi ilə ziddiyyət təşkil edən məqamların olduğu aşkardır. Məsələnin üzərində geniş dayanmadan AŞPA-nın etnik təmizləmə şübhəsinin nədən qaynaqlandığına aydınlıq gətirək. Hər halda, nəyisə xüsusi sübuta yetirməyə ehtiyac yoxdur. Ermənistan rəhbərliyi və ermənipərəst dairələrin gündəlik leksikonunun AŞPA-ya transformasiya olunduğu göz önündədir.

***

Başa düşmək olmur, Azərbaycanın öz öhdəliyini yerinə yetirə bilməməsi nə deməkdir? Yəni, AŞPA öhdəlik dedikdə nəyi nəzərdə tutur ki, qətnamədə bunun baş verməməsinə görə ölkəmizin qurumun 2024-cü ildə keçiriləcək ilk sessiyasında iştirakının ən azı müvəqqəti olaraq dayandırılmasına səs verməkdən başqa yolun qalmayacağı bildirilir? Əslində, suala cavab yoxdur. Sanki, sənəddə seçilmiş bütün sözlər Azərbaycanı hansısa formada mənfi yöndə təqdim etməyə yönəlib. Baxın, orada bildirilir ki, assambleya Avropa Şurasının Nazirlər Komitəsini, AŞ dövlətlərinin üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi ilə bağlı 1994-cü il bəyannaməsi əsasında, Azərbaycan üçün monitorinq aparmağa çağırır. Hələ bilinmir ki, bu çağırış dəyərləndiriləcək ya yox, amma ölkəmizin nümayəndə heyətinin AŞPA-dakı iştirakının müvəqqəti dayandırılması məntiqi işə salınır. Yəni, ortada belə bir qeyri-korrekt davranış, yaramaz məntiq var. Bu məntiq isə şübhəsiz ki, Azərbaycanı cəzalandırmaq ritorikası üzərində qurulub. Həqiqətən, seçilmiş ton da anormaldır. Ortada Ermənistan rəhbərliyinin yağdırdığı hədyanı eyni ilə qətnaməyə köçürmək kimi rəzil durum var.

***

Yenə də öhdəlik. Asssambleyanın qətnaməsində bildirilir ki, qurum Azərbaycanın sentyabrın 19-da başladığı hərbi əməliyyatlar və Laçın dəhlizinin blokadası nəticəsində yaranmış böhran səbəbindən son iki həftə ərzində 100 min 600-dən çox erməninin Qarabağı tərk etməsindən narahatdır. AŞPA vurğulayır ki, faciəli mühacirət yeni reallıq kimi qəbul edilməməlidir və Azərbaycan Avropa Şurasının əsas dəyərlərinə sadiq qalmalı və üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə hazır olduğunu nümayiş etdirməlidir.

Bəli, Azərbaycanın AŞ-yə daxil olarkən üzərinə götürdüyü öhdəliklər var. Bunlara başlıca olaraq, insan hüquqlarının təminatı, sərbəst toplaşmaq, söz və ifadə azadlığı daxildir. Yəni, sadalanan dəyərlər bir ölkənin suveren hüquqları daxilinə aiddir. AŞPA özünün 2005-ci il qətnaməsində Qarabağa separatçıların nəzarət etdiyini bildirib. Bəli, həqiqətən də, durum belə idi. O zaman düşünməyə əsas var ki, ən azı 2005-ci ildən indiyədək həmin ərazidə Azərbaycanın yurisdiksiyası bərqərar olmamışdır. Lokal xarakterli antiterror tədbirləri ölkəmizə suverenliyini qazandırdığı kimi, AŞPA-nın 18 il əvvəl çıxardığı qətnamənin də icrasını təmin edib. Bu proses əsnasında bölgənin erməni əhalisi Qarabağı tərk edibsə, Azərbaycan nə etməlidir? Axı, əvvəlcədən həmin əhaliyə müraciət ünvanlandı, dəfələrlə reinteqrasiya çağırışları irəli sürüldü. Məsələyə əhəmiyyətsiz yanaşılırsa, bunun günahı ölkəmizdədirmi?

AŞPA qətnamə çıxarıb pisləmək yox, Qarabağın erməni əhalisinin bölgədə qalacağı təqdirdə, Azərbaycana çağırış edə bilərdi ki, həmin əhalinin təməl hüquq və azadlıqlarına hörmətlə yanaşılsın və s. Yəni, bunu müəyyən qədər anlayışla qarşılamaq olardı. Bölgədə erməni qalmayıbsa, yuxarıda barəsində söz açdığımız monitorinq məntiqi də mənasızdır. Nəyin monitorinqi aparılacaq? Xankəndinin, Ağdərənin və başqa yerlərin boş görüntülərinin? Əlbəttə, belə qərəz varsa, monitorinqçilər gedib küçələrdə insan ruhlarını gördüklərini və onlara qarşı etinasız yanaşıldığı iddiasını da irəli sürə bilərlər...

***

AŞPA-nın qətnaməsində Azərbaycanı Qarabağın erməni əhalisinin geri qaytarılması və onların hüquqlarının müdafiəsi üçün təcili tədbirlər görməyə çağırırlar. Sual olunur: niyə getmişdilər, nə üçün qayıdırlar? Olmazdımı ki, getməsinlər? Görünür, olmazmış. Məsələ burasındadır ki, Qarabağın tez bir zamanda ermənisizləşdirilməsi planı bölgə ilə bağlı avantürizmin davamı idi. "Plan" Fransa başda olmaqla, dünya erməniliyi tərəfindən çox incə şəkildə hazırlanıb. Təxminən belə: Qarabağ boşalacaq, sonra Azərbaycana təzyiqlər ediləcək ki, ölkəmiz onların geri qayıtmaları üçün beynəlxalq təminata razılıq versin. Beynəlxalq təminat qismində isə BMT-nin sülhməramlıları götürülür. Yəni, faktiki olaraq, Qarabağ ermənilərinin ayrıca imtiyazlı təbəqə kimi nəzərdə tutulması məntiqi üzərində dayanılır. Yəni, Ermənistan rəhbərliyinin lokal xarakterli antiterror tədbirlərinədək irəli sürdüyü ideya dəstəklənir. Haqqında söz açdığımız avantürizmin davamı da elə budur. Deməli, rəsmi İrəvanın, Qarabağ da daxil, Azərbaycanın ərazi bütövlüyünü tanıması məsələsi ikinci plana keçir. AŞPA isə Fransanın və digərlərinin ermənipərəstlik ssenarisində alətə çevrilir. Əlbəttə, söhbət bölgəyə BMT sülhməramlılarının yeridilməsi və onların Qarabağ ermənilərinin həyat təminatına nəzarəti həyata keçirmələrindən gedirsə, deməli, "erməni təəssübkeşliyinin" bir məqsədi də bölgədə Rusiyaya qarşı alternativlikdir.



***

Bəli, bir daha AŞPA-nın 2005-ci il qətnaməsində Qarabağın separatçıların nəzarəti altında olduğunun bildirildiyini xatırlatmağa ehtiyac duyuruq. Niyə? Ona görə ki, qurumun hazırkı qətnaməsində assambleya Azərbaycanı Qarabağın bütün həbs olunmuş nümayəndələrini azad etməyə çağırır. Başa düşmək olmur, ölkəmiz nəinki 2005-ci ildən, ondan 15 il əvvəldən bölgədə lövbər salmış separatçıları və onların ardıcıllarınımı azad etməlidir? Bəlkə müharibə canilərini, insanlıq əleyhinə cinayətlər, soyqırımıları törətmiş şəxsləri azad buraxmağımız AŞPA-dakılara həzz yaşadacaq? Əgər belə bir durum varsa, qurumdakıların psixi vəziyyətlərini yoxlamağa ehtiyac duyulmaqdadır. Təsəvvür edin, Qarabağdakı sabiq separatçı rejimin rəhbərlərindən olan Araik Arutyunyan özü efirə çıxıb Azərbaycanın Gəncə şəhərinə raket hücumuna əmr verdiyini deyir və bununla da onun onlarla dinc sakinin ölümündəki təqsiri sübuta yetirilmiş olur, AŞPA-dakı "ağıl dəryaları" deyirlər ki, Azərbaycan hökuməti onu azad etməlidir? Bu nə yanaşmadır, nə təəssübkeşlikdir? Hələ qurumun erməni təəssübü bununla bitmir. Sən demə, ölkəmiz digər erməni hərbi əsirlərini də azad etməli, erməni mədəni mirasını qorumalı imiş. Hər halda, AŞPA-nın qətnaməsinə bunlar da daxil edilib. Görəsən, hansı erməni mirasından söhbət gedir? Qurum Bakının mərkəzində erməni kilsəsinin hələ də qorunduğunu niyə nəzərə almır? Bu, bir yana, AŞPA Azərbaycanın illərlə işğal altında qalmış bölgələrindəki abidələrə qarşı barbar münasibətə hansı səbəbdən reaksiya vermir?

AŞPA əmindir ki, münaqişə yalnız sülh yolu ilə, orada yaşayan hər bir insanın hüquqlarına tam hörmətlə həll oluna bilər. Mövcud xüsusda assambleya Azərbaycanı Ermənistanla sülh şəraitində yaşamağa hazır olduğunu nümayiş etdirməyə çağırır. Başa düşmək olmur ki, hansı səbəbdən çağırış Azərbaycana ünvanlanmalıdır? Məgər, Bakı İrəvana sülh çağırışı etməyib? Dəfələrlə edib və bunun qarşılığında Azərbaycan torpaqlarında separatçı rejimin fəaliyyət göstərdiyini, özünü ayrıca dövlət kimi təsəvvürə gətirdiyini, hər cür təxribat əməllərinə əl atdığını, mina terrroru gerçəkləşdirdiyini görüb. AŞPA bunu nəzərə alırmı? Təəssüf ki, yox!

Digər tərəfdən, assambleyanın öz qətnaməsində ölkələrin suverenliyinə, ərazi bütövlüyünə əsaslanan və milli yurisdiksiya çərçivəsində regional kanalların açılmasına dair çağırış səsləndirməsi ilə yuxarıda sadalananlar bir-birinə ziddir. Hər halda, qurum Qarabağda hər iki ölkənin milli yurisdiksiyasının işlənməsini nəzərdə tutmur. Hərçənd, bunu şübhə ilə bildiririk. Qətnaməsində "Qarabağa hücum" ritorikasını qabardan AŞPA-nın ermənipərəstlik naminə hər şeyi edə biləcəyi aşkardır. Qurum bildirdiyi kimi, həm Ermənistandan, həm də Azərbaycandan Alma-Ata Bəyannaməsi əsasında bir-birinin ərazi bütövlüyünə və suverenliyinə, habelə sərhədlərin toxunulmazlığına hörmətlə yanaşma gözləyirsə, o zaman, gərək, Qarabağ erməniləri ilə bağlı məsələdən ümumiyyətlə söz açmasın. Deməli, İrəvan sözügedən Alma-Ata Bəyannaməsi ilə necə manipulyasiya edirsə, eyni yolu AŞPA da tutmaqdadır.

Qətnamədəki daha bir maraqlı məqama diqqət yetirək. Bəri başdan deyək ki, məhz bu məqam sənədin ermənipərəst mahiyyətini vurğulamaq baxımından son dərəcə vacibdir. Təsəvvür edin, Ermənistan baş naziri Nikol Paşinyan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata imza ataraq, Azərbaycanın digər rayonları ilə Naxçıvanı birləşdirən yolun açılmasını, həmçinin bu yola nəzarətin Rusiya Federal Təhlükəsizlik Xidməti tərəfindən gerçəkləşdirilməsini təsdiqləyir, AŞPA isə vurğulayır ki, Ermənistanın iradəsinə zidd və ölkənin milli maraqlarına xələl gətirməklə, Naxçıvanla mümkün əlaqə yaratmaq olmaz.

Göründüyü kimi, bu müddəa İrəvanın üzərinə götürdüyü öhdəliklərdən yayınmasına beynəlxalq platformalarda haqq qazandırmaq niyyətindən başqa bir şey deyil. Ancaq yaxın tariximiz öz imzasından yayınanların uşaq davranışlarının, qeyri-ciddiliklərinin hansı acınacaqlı aqibəti doğurduğunun canlı şahididir. Bu fikri ona görə deyirik ki, AŞPA-nın heç bir hüquqi gücü olmayan qətnamələri məsuliyyətin sərt sifəti ilə üzləşməkdən sığortalamır.

Əlbəttə, Ermənistan hakimiyyəti AŞPA-nın qətnaməsinə bənzər sənədləri uğur kimi qiymətləndirə bilər. Onun belə sənədlərin təsiri ilə eyforiyaya qapılması da mümkündür. Yəni, kimlərisə ələ alıb Azərbaycan əleyhinə iş çevirmək hələ nəsə demək deyil. Çünki məsuliyyət sərt sifətli olduğu kimi, həqiqət və reallıq da eyni təbiətə malikdir. Hazırda Ermənistan hakimiyyəti, dünya erməniliyi və Fransa başda olmaqla, xaricdəki ermənipərəstlər mənasız, lakmus kağızına bənzər qətnamələrlə, guya ölkəmizə qarşı cəbhə açdıqlarını, beləliklə reallıqlara meydan oxuduqlarını düşünürlər. Heç şübhəsiz, beynəlxalq müstəvidəki son güllələrini atmaqla məşğuldurlar. Necə ki, AŞPA-nın haqqında lap əvvəldən söz açdığımız 2005-ci il qətnaməsi heç nəyə kömək eləmədi, yəni Azərbaycanın torpaqları daha 15 il də işğalda qaldı, qurumun həmin sənədi təkzib edən 12 oktyabr tarixli qətnaməsi də nəyisə dəyişən deyil.

***

Sonda AŞPA-nın məlum qətnaməsini əhəmiyyətsiz sənəd kimi vurğulayan ritorikanı ifadə tərzi baxımından bir qədər də "zənginləşdirmək" istərdik. Hesab edirik ki, bu nöqteyi-nəzərdən ən ideal qiyməti biz yox, erməni siyasiləri versələr, daha yaxşıdır. Məsələn, Ermənistan parlamentinin keçmiş deputatı Naira Zöhrabyanın söylədiklərinə nəzər salaq: "AŞPA-nın qətnamələri, Avropa Parlamentinin qətnamələri kimi, hüquqi qüvvəyə malik deyil. Azərbaycana qarşı konkret sanksiyalar təklif ediblərmi? Bir neçə gün əvvəl Avropa Parlamenti daha irəli gedərək, Avropa Birliyinə Azərbaycana sanksiyalar tətbiq etməyi tövsiyə etdi. AB Azərbaycana qarşı sanksiyalar tətbiq etdimi? Təbii ki, yox! Üstəlik, AB liderləri bəyanat verməkdə davam edirlər. Onların Azərbaycana sanksiyalar tətbiq etmək planları yoxdur". N. Zöhrabyan onu əlavə edib ki, belə qətnamələr adi kağız tullantılarıdır, zibildir. Zənnimizcə, əlavə şərhə ehtiyac yoxdur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Fransa regionda savaş axtarırmı?

## Hər halda Parisin erməni "təəssübkeşliyi" sülhə xidmət etmir



**Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi bəzi qeyri-region dövlətlərini narahat edir. Xüsusilə 19 sentyabr lokal xarakterli antiterror tədbirlərindən sonra erməni əhalinin Azərbaycanın Qarabağ regionunu könüllü şəkildə tərk etməsi Fransa kimi ölkələri destruktiv addımlara sürükləyir.**

Belə ki, Fransanın təşəbbüsü ilə oktyabrın 11-də BMT-nin İnsan Hüquqları Şurasında bir qrup ölkə Azərbaycana qarşı birgə bəyanatla çıxış edib. Bəyanatda ermənilərin Azərbaycanın Qarabağ bölgəsindən köçürülməsinin səbəbləri ilə bağlı böhtan xarakterli ittihamlar yer alıb. Təbii ki, bu təşəbbüslərin əsaslandığı iddialar həqiqətə uyğun deyil və insan hüquqlarının müdafiəsi deyil, sülh prosesinə zərbə vurmaq və regionda gərginliyi artırmaq məqsədi daşıyır.

Fransa 25 ilə yaxın Ermənistan–Azərbaycan münaqişəsində vasitəçi olub, lakin heç vaxt Ermənistanın işğalçılıq siyasətini pisləməyib. Paris münaqişənin həlli üçün heç bir istək də nümayiş etdirməyib, əksinə, Azərbaycan münaqişəni müstəqil şəkildə həll etdikdən sonra ölkəmizə qarşı böhtan kampaniyası aparır. Özünü yalandan insan haqları və beynəlxalq hüququn müdafiəçisi kimi təqdim edən Fransa digər ölkələrin daxili işlərinə qarışmaqda davam edir. Prezident İlham Əliyevin cari ilin iyul ayında Bakıda keçirilmiş Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündəki çıxışında dediyi kimi, "Fransa Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyərək, geosiyasi rəqabət, xarici hərbi mövcudluq və "Orientalizm" müstəmləkəçilik siyasəti ilə Cənubi Qafqaz regionunda da eyni mənfur təcrübəni tətbiq etməyə çalışır". Fransa BMT Təhlükəsizlik Şurasında Qarabağın erməni əhalisinin geri qaytarılmasına şərait yaradacaq qətnamənin qəbul edilməsi üçün yeni müzakirəyə başlamaqla üzünə çırpılmış qapını yenidən döyməyə bəhanə axtarır.

BMT-nin İnsan Hüquqları Şurası (UNHRC) qurumun orqanıdır və onun missiyası bütün dünyada insan hüquqlarını təşviq etmək və qorumaqdır. UNHRC-un əsas vəzifəsi hesabat və tövsiyələr hazırlamaqdır. Xüsusi məruzəçilər şəxsi səlahiyyətlər çərçivəsində fəaliyyət göstərir, hökumətlərin dəvəti ilə ölkələrə səfər edir, öz səlahiyyətləri daxilində məsələləri qiymətləndirmək üçün hökumətlər, biznes qurumları və QHT-lərlə danışırlar. Onların mandatı tematik ola bilər, məsələn, inkişaf hüququ, transmilli korporasiyaların məsuliyyəti və ya insan hüquqları. Heç kimə sirr deyil ki, insan haqları mövzusundan bir çox hallarda postsovet ölkələrinə siyasi təzyiq aləti kimi istifadə olunur. İndi Fransa insan haqları məsələsindən sui-istifadə edərək, ondan siyasi alət kimi yararlanmaqla və ikili standartlar tətbiq etməklə suveren dövlətə–Azərbaycana təzyiq göstərməyə çalışır.

Əlbəttə, bügünkü Fransa güclü prezidentləri dövründə sahib olduğu səlahiyyət və təsirə malik deyil. Parisin dünyada və Frankofoniya ölkələrində nüfuzu qalmayıb və buna görə də Emmanuel Makron hökuməti Ermənistanın nümunəsindən istifadə edərək, Fransanın hələ də formal müttəfiqlərinin maraqlarını qoruyacaq qədər güclü və nüfuzlu olduğunu göstərməyə çalışır. Bu, ən azı fransızların erməni maraqlarını müdafiə edərkən istifadə etdikləri tələbkar ritorikadan aydın görünür. Amma aydındır ki, bu, sadəcə ritorikadır, onun arxasında güclü geosiyasi təsir dayanmır, Paris bununla göldə tufan yaratmağa can atır. Fransanın BMT Təhlükəsizlik Şurasında Dağlıq Qarabağın erməni əhalisinin geri qaytarılmasına şərait yaradacaq qətnamənin qəbul edilməsi üçün yeni müzakirəyə başlaması da dediklərimizi təsdiqləyir.

Fransanın təşəbbüsü ilə bir qrup dövlətin 2023-cü il oktyabrın 11-də BMT-nin İnsan Hüquqları Şurasında Azərbaycan əleyhinə birgə bəyanat verməsi Parisin sülh yox, savaş axtarışında olmasından xəbər verir. Bəyanatda Azərbaycanın Qarabağ bölgəsindən ermənilərin köçməsinin səbəblərinə dair əsassız və böhtan xarakterli iddialar yer alıb. Halbuki dünya ictimaiyyəti gördü ki, ermənilərin Azərbaycan cəmiyyətinə reinteqrasiyasına Ermənistan əngəl törədir. İndi Fransanın təhriki ilə birgə bəyanata qoşulan ölkələrin Azərbaycana məsləhət verməyə mənəvi haqqı yoxdur. Həmin ölkələrin bir çoxu (Fransa, Almaniya, ABŞ, İspaniya və s.) digər dövlətlərə və xalqlara qarşı dəfələrlə çoxsaylı cinayətlər törədiblər. Fransanın bu təşəbbüsü qərəzli və birtərəflidir və orada Ermənistandan qovulmuş azərbaycanlıların qayıdış hüququna toxunulmur. Birgə bəyanata imza atanlar 1 milyona yaxın azərbaycanlının öz doğma torpaqlarından qovulmalarına niyə göz yumurdular? Hazırda yüz minlərlə doğma yurdlarından məhrum olmuş azərbaycanlı hələ də köçkün həyatı yaşayır. Amma sənəddə onlar haqda heç nə deyilmir. Buna görə də bəyanata imza atanlar ikili standartlara, məsələlərə dini və etnik təəssübkeşlik prizmasından yanaşmalarına son qoymalıdırlar.

Bir sözlə, Fransanın təşəbbüsləri sülhə xidmət etmir. Paris və digərləri azərbaycanlılara qarşı bu cür ayrı-seçkiliyə yol verməklə regionda gərginliyi artırmaq və sülh prosesini relsdən çıxarmaq məqsədi güdürlər. Fransanın Ermənistana külli miqdarda silah, sursat və hərbi texnika satmasını nəzərə alsaq, onun bölgədə sülh axtarmadığını görürük. Sülh üçün yaradılmış fürsəti adekvat qiymətləndirməyən Fransa və onun kimi ölkələr tarixi məsuliyyət daşıdıqlarını unutmamalıdırlar.

***S.ELAY***
***XQ***

# Ədalətin təntənəsi



**Azərbaycan tarixində ən çox xatırlanan, ən çox mübahisə doğuran, ən çox böhtana məruz qalan və təhrif olunan problem Qarabağla bağlıdır. Qarabağ həm də dünya dövlətləri tərəfindən ən çox münasibət bildirilən bölgədir. Sual olunur: Bu nə ilə bağlıdır?**

Tarixə nəzər salaq. Qarabağ bütün tarixi mənbələrdə Azərbaycan torpağı kimi xarakterizə olunur. Şübhəsiz, bu ərazinin yerli əhalisi azərbaycanlılardan ibarət idi. Alban məlikləri bu ərazidə məskunlaşandan sonra yerli müsəlman əhali ilə gəlmə xristian əhali arasında çox zaman mübahisələr münaqişə səviyyəsinə qalxırdı. Xristian əhali bəzən yardım üçün hətta çar Rusiyasına belə müraciət edirdi. Qarabağda heç bir söz sahibi olmayan ermənilər də xristian dininin daşıyıcılarına tərəfdar çıxır və müsəlmanlara olan düşmən münasibətini büruzə verirdilər. Qarabağda separatçı meyillər artdıqca bu əraziyə müdaxilələr üçün bəhanə yaranırdı. Səbəb kimi də, guya, xristian əhali incidilir, dinləri isə təqib olunur.

Çar II Yekaterina general Zubova göstəriş verərək demişdi: "Qarabağı al, ermənilərin sayını artır, orada mənim şərəfimə Çarqrad şəhərinin əsasını qoy, Alban erməni dövlətini elan et!" Göründüyü kimi, Qarabağ ərazisi ilə heç bir bağlılığı olmayan rus və ermənilər bu torpaqlara sahib olmaq üçün təcavüzkar planlar hazırlamışdılar. II Yekaterinanın ölümü bu müdaxilənin gerçəkləşməsini bir neçə il ləngitdi.

Müstəqil Azərbaycan xanlıqlarının vahid dövlət şəklində birləşə bilməməsi xanlıqların, o cümlədən Qarabağ xanlığının işğalını sürətləndirdi. Doğrudur, 1805-ci il mayın 14-də rus generalı P.Sisianovla Qarabağ xanı İbrahimxəlil xan arasında 11 maddədən ibarət "Kürəkçay müqaviləsi" imzalandı. Əgər müqavilə bağlanan dövrdə ermənilər də bu ərazidə söz sahibi, yaxud bu ərazinin sahibi olsaydılar, yəqin ki, müqavilədə onların adına da rast gəlməli idik. Amma müqavilədə ermənilərlə bağlı heç nə yoxdur.

1813-cü il "Gülüstan" və 1828-ci il "Türkmənçay" müqavilələrinə əsasən, Şimali Azərbaycan xanlıqları Rusiya tərəfindən işğal olundu, Cənubi Azərbaycandan və Osmanlı ərazisindən yüz minlərlə erməni Azərbaycan torpaqlarına köçürüldü. Təbrizdə ermənilərin köçürülməsinə rəhbərlik edən İ.Lazarev haylara müraciətində deyirdi: "Ey ermənilər, sizə şad xəbərim var.Sizə təzə vətən tapmışıq. Bu təzə vətən Qarabağ, Naxçıvan və İrəvandır".

Ermənilərin Qarabağa köçürülməsi dövründə çar I Nikolayın 1828-ci il martın 21-də keçmiş Naxçıvan və İrəvan xanlıqları ərazisində erməni vilayətinin yaradılması haqqında verdiyi fərman onu göstərir ki, bu ərazilərdə erməni olmayıb. Əgər ermənilər bu ərazinin sakini olsaydılar, çarın fərmanına ehtiyac qalmazdı.

Rus qafqazşünası İ. Şopen yazırdı ki, Qafqazda 1 milyon 300 min erməni yaşayır, bunların bir milyonu gəlmədir. Ermənilərin Qafqaza , o cümlədən Qarabağa köçürülməsi ilə bağlı çoxsaylı rus tarixçilərinin əsərləri var. Bu əsərlərin hər birində Qarabağ əhalisinin yerli, ermənilərin isə gəlmə olduqları xatırlanır. Çox təəssüflər olsun ki, çarizm erməniləri Azərbaycan torpaqlarına köçürmək üçün hər cür riyakarlığa əl ataraq, XX əsrin əvvəllərində bölgədə demoqrafik vəziyyəti ermənilərin xeyrinə dəyişə bildi. Çar üsul-idarəsi azərbaycanlı əhalini öz dədə-baba torpaqlarından zorla köçürdü, erməniləri bu torpaqlarda yerləşdirir və uzun müddətə onları vergilərdən azad edirdi.

1918-1920-ci illərdə Azərbaycanda müsəlman Şərqində ilk Cümhuriyyət quruldu. Qarabağda və Zəngəzurda ermənilər Azərbaycan qanunlarını qəbul etmək istəmirdilər. Onlar Ermənistanın daşnak hökuməti ilə əməkdaşlıq edirdilər. 1919-cu ilin iyulunda Şuşada Azərbaycan hökuməti ilə erməni icması arasında razılıq əldə edildi. Razılığın birinci maddəsinə görə, Qarabağda yaşayan erməni tərəfi Cümhuriyyət qanunları ilə yaşamağa razılığını bildirdi. Milli Hökumət Qarabağda əmin-amanlıq yaratmaq, erməni yaraqlılarını bölgədən çıxarmaq, iki xalq arasında milli ədavəti aradan qaldırmaq üçün Qarabağ General Qubernatorluğu yaratdı.

1920-ci ilin aprel işğalı Cümhuriyyətin Qarabağla bağlı planlarını reallaşdırmağa imkan vermədi. Cümhuriyyətin süqutundan sonra Zəngəzuru ələ keçirən ermənilər Sovet Rusiyası rəhbərliyinin yaxından köməyi ilə Qarabağı Azərbaycandan ayırmaq və Ermənistana birləşdirmək üçün dərindən-qabıqdan çıxırdılar. Hətta 1921-ci il iyulun 4-də Rusiya Kommunist (bolşeviklər) Partiyası Qafqaz bürosu Qarabağın Ermənistana verilməsi haqqında qərar qəbul etdi. Bir gün sonra – iyulun 5-də Qafqaz bürosu yenidən yığışaraq Azərbaycanın tərkibində qalmaqla və Şuşa şəhəri paytaxt olmaqla Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında qərar qəbul etdi. 1923-cü il iyulun 7-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin dekreti ilə Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması elan edildi. Beləliklə, sovet rəhbərliyi Qarabağda daim tüstülənən separatçı yuvanın yaradılmasına nail oldu. Vilayət rəhbərliyi vaxtaşırı sovet rəhbərliyi qarşısında Qarabağ məsələsini qaldırır və Qarabağın Ermənistana birləşdirilməsini tələb edirdilər.

Səksəninci illərin sonunda SSRİ adlanan nəhəng imperiya süqut etdi. Qarabağ erməniləri sovet dövlətinin zəifləməsi və Azərbaycan hakimiyyətinin qətiyyətsizliyindən yararlanaraq Azərbaycandan ayrıldıqlarını elan etdilər. Ermənistan və SSRİ rəhbərliyi Qarabağ ermənilərini müdafiə etdilər. Erməni diasporu və erməni lobbisi Qarabağdakı erməniləri silah və sursatla təmin edir, Qarabağ ermənilərinə isə azərbaycanlı əhalini bölgədən çıxarmaq üçün hər cür qətliam həyata keçirirdilər. Beləliklə, 1993-cü ilin yayına qədər erməni silahlı birləşmələri Azərbaycanın 20 faiz torpağını işğal etdilər, evindən-eşiyindən qovulan bir milyon azərbaycanlı qaçqın və köçkün həyatını yaşamağa məcbur edildi.

1993-cü ilin ən ağır günlərində Azərbaycan xalqının tələbi ilə Heydər Əliyev hakimiyyətə gəldi. Heydər Əliyev Azərbaycanı qardaş qırğınından, vətəndaş müharibəsindən və müstəqilliyin itirilməsindən qorudu. On illik hakimiyyəti dövründə müstəqil Azərbaycan üçün əlindən gələni etdi.

Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu kimi tarixə düşdü. Qarabağ problemi ilə bağlı nə mümkün idisə, onları etdi. Amma onu da etiraf etmək lazımdır ki, Qarabağ məsələsində ermənilərin müdafiəçiləri çoxluq təşkil edirdilər. Dünya Azərbaycanın haqq işini qulaqardına vurur, özünü yazıq və məzlum xalq elan edən ermənilərin göz yaşlarına inanır, onların təcavüzünə haqq qazandırırdılar. Ümummilli lider Azərbaycan xalqını inandırırdı ki, Qarabağ azad olunacaq və Azərbaycanın üçrəngli bayrağı bu bölgədə şərəflə dalğalanacaq.

Ümummilli lider 2003-cü ilin prezident seçkilərində Qarabağı Azərbaycana qaytara bilən şəxsin namizədliyini irəli sürdü. Azərbaycan xalqı Heydər Əliyevin irəli sürdüyü namizədi böyük səs çoxluğu ilə prezident seçdi.

Beləliklə, Qarabağ uğrunda Prezident İlham Əliyev başda olmaqla, Azərbaycan xalqının mücadiləsi başlandı. Prezident İlham Əliyev bütün Azərbaycan xalqının Prezidenti ola bildi, xalq və iqtidar birliyini təmin etdi, Qarabağ probleminin tarixini və hüquqi əsaslarını dünyaya çatdırdı, güclü iqtisadiyyatın yaradılmasına nail oldu, özünün dediyi kimi, "hakimiyyətim dövründə əsgərimdən bir gün belə ayrılmadım."

Bəli, 44 günlük Vətən müharibəsi Azərbaycan xalqının taleyində və tarixində ölüm-dirim savaşı idi. Ali Baş Komandan xalqını əmin etdi ki, onun dünyaya gətirdiyi, tərbiyə etdiyi əsgər heç vaxt məğlub ola bilməz.Ali Baş Komandan Azərbaycanın haqq işinə mane olan və təhdid edən dövlətləri yerində oturtmağı bacardı. Ali Baş Komandan hər gün işğaldan azad olunan kənd və şəhərlərlə bağlı ilk xəbəri özü elan edirdi. Azərbaycan təqribən 30 ildən sonra Qarabağla bağlı xoş xəbərlər və qələbə sevincini yaşadı. Vətən müharibəsində erməni ordusu ilə bağlı bütün miflər ifşa olundu, ermənilərin havadarları hədə-qorxuları ilə heç nəyə nail ola bilmədilər. Çünki 44 günlük Vətən müharibəsinin Qəhrəmanı öz fitri istedadı, qətiyyəti, cəsur, mərd və vətənsevərliyi ilə hamını heyran etdi. Torpaqlarının azad olmasını həsrətlə gözləyən xalqını inandırdı ki, ümummilli lider Heydər Əliyevin yolu haqq yoludur. Bu yol hamını birləşdirdi. Birləşən və İlham Əliyevə səs verən xalqın torpağı işğal altında qala bilməz və qalmadı.

2023-cü ilin sentyabrında Azərbaycan öz tarixində ilk dəfə bütövləşdi, dövlətimizin suverenliyi bərpa olundu, üçrəngli bayrağımız bütün ərazilərimizdə dalğalanmağa başladı. 100 il əvvəl Azərbaycan xalqının iradəsinin əleyhinə yaradılan muxtar qurum 2023-cü ildə tarixdən birdəfəlik silindi. Azərbaycanın dövlət başçısının dediyi kimi, Qarabağ Azərbaycandır!

2023-cü il ümummilli lider Heydər Əliyev ilidir. Heydər Əliyevin 100 illik yubileyinə ən böyük hədiyyə Qarabağın azad olunması və Azərbaycanın bütövləşməsi ola bilərdi. Bəli, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin ruhunu belə şad edə bilərdi və şad etdi. Müzəffər Ali Baş Komandan Azərbaycan tarixinə Qarabağın fatehi kimi daxil oldu. Uğurunuz mübarək, müzəffər Ali Baş Komandan!

***Anar İSGƏNDƏROV,***
***Milli Məclisin deputatı, tarix elmləri doktoru, professor***



# Üfüqdə daha uca zirvələr görünür

**15 oktyabr 2003-cü il – xilaskar Prezident, müzəffər Ali Baş Komandan, yenilməz sərkərdə İlham Heydər oğlu Əliyevin seçicilərin böyük əksəriyyətinin səsi ilə Azərbaycan dövlətinin sükanı arxasına keçdiyi gündür.**

Ümummilli liderin siyasi kursunun yeganə düzgün yol olduğunu görən xalqımız həmin gün keçirilən seçkilərdə onun layiqli varisi İlham Əliyevi dəstəkləyərək, 76,8 faiz səslə onu özünə yeni Prezident seçdi. O, xalqa ilk müraciətində "Mən hər bir azərbaycanlının prezidenti olacağam!" – demişdi. Bu illər ərzində o, verdiyi sözə əməl etdi, hər bir azərbaycanlı üçün sadəcə Prezident deyil, layiqli Prezident olmağı bacardı. Bu gün həmin ifadənin həqiqətə çevrildiyi tarixə şahidlik etmək hər bir azərbaycanlıya yalnız qürur hissi yaşadır.

Prezident İlham Əliyev öz varlığı, əməlləri ilə bu 20 ildə əsrə bərabər möhtəşəm bir tarixə imza atıb. Bu möhtəşəm tarixin müəllifi də, yazarı da, yaradıcısı da İlham Əliyevdir.

Prezident İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq idarəçilikdə nümayiş etdirdiyi yüksək məharət, həyata keçirdiyi qətiyyətli, milli maraqlara söykənən daxili və xarici siyasət çox keçmədən öz müsbət nəticələrini verdi. Xalqın öz liderinə inam və etimadı yüksək dərəcədə artdı. Məhz buna görə də 2008-ci, 2013-cü və 2018-ci illərdə keçirilən prezident seçkilərində də İlham Əliyev yenidən inamlı qələbə qazandı.

Ötən 20 ilə nəzər salanda işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsində qazanılmış möhtəşəm Qələbə, əlbəttə ki, bu illərin zirvəsində dayanır. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrildi. Bu Qələbə sayəsində regionda yeni reallıqlar yarandı.

Bu illər ərzində Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində atılan ardıcıl addımların nəticəsidir ki, Azərbaycan Ordusu bu gün dünyanın ən güclü 50 ordusu sırasında yer alır. Məhz bu ordu öz Ali Baş Komandanının qüdrətli sərkərdəliyi ilə 2020-ci il sentyabrın 27-də Ermənistanın hərbi təcavüzünə cavab olaraq qurtuluş savaşına başladı və dünyanı heyrətə salan hərbi uğurlara imza atdı. 30 ilə yaxın müddətdə işğal altında qalan torpaqlarımız 44 gün ərzində azad olundu. Qarabağın tacı, döyünən ürəyi olan Şuşanın fəthi tariximizə Zəfər Günü kimi yazıldı. İki gün sonra isə işğalçı Ermənistan kapitulyasiya sənədinə imza atmağa məcbur oldu. Beləliklə, BMT Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalmış qətnamələrini Azərbaycan özü icra etdi.

Dünya hərb tarixində xüsusi yer tutan bu müharibə Prezident İlham Əliyevin daha bir keyfiyyətini – sərkərdəlik məharətini üzə çıxardı. O, əməliyyatlara şəxsən nəzarət edir, döyüşən orduya tapşırıqları birbaşa özü verirdi. Qələbəni şərtləndirən mühüm amillərdən biri də Azərbaycan Prezidentinin diplomatiya müstəvisində çevik siyasəti oldu. Müharibə dövründə dövlətimizin başçısı İlham Əliyev beynəlxalq mətbuata 30-dan çox müsahibə verdi ki, bu da münaqişə ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında mühüm rol oynadı.

Bu ilin sentyabr ayında müzəffər Ali Baş Komandanın əmrləri ilə həyata keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycan Ordusu cəmi 23 saat ərzində düşmən üzərində qəti Qələbəsinə imza atdı.

Əlbəttə, Vətən müharibəsində qazanılmış Qələbə həm də həyatın bütün sahələrində əldə olunmuş uğurlarla, dinamik inkişafla bilavasitə bağlıdır. Prezident İlham Əliyevin də vurğuladığı kimi, Azərbaycan heç vaxt indiki qədər güclü olmayıb. Dövlət başçısının praqmatik liderlik xüsusiyyətləri ilə rəhbərlik etdiyi və ölkədə bütün sahələrdə uğurla həyata keçirilən siyasət nəticəsində Azərbaycanın beynəlxalq arenadakı mövqeyi möhkəmlənib, Azərbaycan dünyada söz sahibinə çevrilib. Bu gün regionda Azərbaycanın iştirakı olmadan, onun milli maraqları nəzərə alınmadan hər hansı beynəlxalq, irimiqyaslı layihələrin reallaşması mümkün deyil. Azərbaycan bu gün dünyada bir çox transmilli layihələrin təşəbbüskarı və uğurlu icraçısı, etibarlı tərəfdaşı kimi tanınır. Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri, Azərbaycanın qazını Avropaya çatdıran Cənub Qaz Dəhlizi, TAP layihəsi, Avropanı Asiya ilə birləşdirən Bakı–Tbilisi–Qars dəmir yolu, Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizləri ölkəmizi energetika və nəqliyyat mərkəzinə çevirib. Azərbaycan bu gün dünyanın məhdud saylı kosmik ölkələri sırasında yer alır.

Prezident İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın müttəfiqlərinin və dostlarının sayını artırıb. Ölkəmiz BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib. Özündə 120 ölkəni birləşdirən və BMT-dən sonra dünyada ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatına sədrlik Azərbaycana keçib. Təşkilata sədrlik müddətinin daha bir il artırılması Prezident İlham Əliyevin qlobal liderlik səylərinə verilən yüksək qiymətdir.

Bu gün Azərbaycan dünyanı həm də işğaldan azad edilmiş ərazilərdə həyata keçirdiyi nəhəng bərpa və quruculuq işləri ilə heyrətləndirir. 30 il düşmən tapdağı altında qalan torpaqlarımız məhz Prezident İlham Əliyevin əzmkarlığı ilə cənnətə çevrilir. Uzun illər yurd həsrəti ilə yaşayan insanlar öz doğma torpaqlarına qayıdırlar.

Ölkə və xalq olaraq əldə etdiyimiz uğurların təməlində məhz onun gərgin əməyi sayəsində yaranan sağlam ictimai-siyasi mühit, xalqla iqtidarın birliyi dayanır.

Bu illər ərzində Azərbaycan xalqı hər zaman öz liderinə – Prezidentinə güvənib və inanıb! Xalq öz Prezidentini sevir! Xalq öz Prezidentinin arxasındadır!

Əminik ki, bu qarşılıqlı inamla 20 ildə əsrə bərabər möhtəşəm bir yol qət edən xilaskar Prezident, müzəffər Ali Baş Komandan, yenilməz Sərkərdə cənab İlham Əliyev Azərbaycanımızı bundan sonra da üfüqdən boylanan daha uca zirvələrə aparacaqdır!

***Jalə ƏLİYEVA,***
***Milli Məclisin deputatı, filologiya elmləri doktoru, professor***

# “Gizli müharibə” həm can alır, həm də yurda qayıdışı ləngidir

## “Minadan azad dünya üçün qlobal təşəbbüs”Azərbaycanın üzləşdiyi bu problemi beynəlxalq aləmin diqqətinə çatdırır

**Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsi apararaq, torpaqlarını işğaldan azad etdi. Ordumuzun bu ilin sentyabrın 19-20-də keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində isə Qarabağ iqtisadi rayonunun bütün ərazisində suverenliyimiz təmin olundu. Antiterror tədbirlərinin digər mühüm nəticəsi Ermənistan ordusunun Qarabağdakı qanunsuz silahlı birləşmələrinin tərk-silah edilmələri oldu. Təcavüzkarın atıcı silahları, döyüş sursatları, o cümlədən ağır artilleriyası, tankları, zirehli döyüş maşınları müsadirə edildi.**



19-20 sentyabr tədbirlərinin digər mühüm nəticəsi ərazilərimizin minalarla çirkləndirilməsi prosesinə son qoyulması oldu. Ermənistan ordusu tərəfindən işğal müddətində ərazilərimizə piyada və tank əleyhinə saysız-hesabsız minalar basdırılıb. Bu yaxınlarda – oktyabrın 11-də ATƏT-in ənənəvi “İnsan ölçüsü” üzrə Varşava konfransında Azərbaycanın ATƏT yanında Daimi Nümayəndəliyinin təşkilatçılığı ilə mina təcavüzünün insan haqlarına təsiri mövzusunda tədbirdə Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Elşad İsgəndərov 30 ilə yaxın davam edən işğal nəticəsində ölkəmizin ərazisinin ondabirinin Ermənistan tərəfindən məqsədyönlü şəkildə minalarla çirkləndirildiyini, bu ərazilərdə 1,5 milyondan çox minanın basdırıldığını diqqətə çatdırıb.

Gözlənilirdi ki, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatdan sonra bu mənfur əmələ son qoyulacaq. Amma Qarabağda özünü qondarma “müdafiə ordusu” adlandıran, əslində isə Ermənistan ordusunun bir parçası olan qanunsuz silahlı birləşmələr yenə də mina terrorunu davam etdirdilər. Azərbaycanın bu məsələni keçirilən üçtərəfli görüşlərdə, beynəlxalq səviyyəli tədbirlərdə dəfələrlə qaldırmasına, çağırışlar etməsinə baxmayaraq, durum dəyişmədi. Qondarma rejim ərazilərimizi 2021-ci ildə Ermənistanda istehsal olunmuş minalarla çirkləndirməyə davam etdi. Bununla bağlı ölkəmizin müvafiq qurumları peykdən çəkilən görüntülər də daxil olmaqla, digər təkzibedilməz sübutlara malik idilər. Lokal xarakterli antiterror tədbirləri nəticəsində isə qeyri-qanuni rejimin 480 kilometrlik təmas xətti boyunca təqribi hesablamalara görə, əlavə yarım milyon mina basdırdığı aşkara edilib.

Vətən müharibəsindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistan baş naziri Nikol Paşinyanla keçirdiyi görüşlərdə qaldırdığı əsas məsələlərdən biri də mina xəritələrinin verilməsi ilə bağlı idi. Nəhayət, İrəvan bir neçə belə xəritə verdi. Azərbaycan isə xoş məram nümayiş etdirərək Vətən müharibəsindən sonra – 2020-ci ilin dekabrında Xocavənd rayonunda diversiya əməllərinə görə saxlanılmış erməni yaraqlılarının bir neçəsini qarşı tərəfə təhvil verdi. Ancaq İrəvanın verdiyi xəritələrin doğruluq, dəqiqlik faizi çox aşağı idi. Belə ki, Ermənistan tərəfindən Ağdam, Füzuli və Zəngilan rayonları üzrə verilmiş minalanmış ərazilərinin xəritəsinin dəqiqliyinin 25 faiz təşkil etdiyi məlum olmuşdur.

Aprelin 23-də “Laçın” sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılması təkcə dövlətimizin öz sərhədlərinə sahib çıxması deyildi. Bununla həm də minaların daşınmasına son qoyuldu. Düzdür, xunta rejimi daha bir neçə ay – süquta uğrayanadək torpaq yollardan istifadə etməklə işi davam etdirdi.

Ərazilərin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi uzun, yorucu, ağır zəhmət, vaxt və böyük vəsait tələb edən işdir. Müharibənin başa çatmasından bir neçə sonra Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) rəsmiləri işğaldan azad edilmiş ərazilərin tamamilə minalardan təmizlənməsi üçün azı 10-15 il vaxt lazım olduğunu bildirmişdilər. İkinci Dünya müharibəsinin başa çatmasından 80 ilə yaxın vaxt keçir. Amma Avropanın müxtəlif ölkələrində şəhər və kəndlərində, o cümlədən Berlində hələ də partlamamış hərbi sursatlar tapılır və zərərsizləşdirilir.

Onu da qeyd edək ki, minalar “müharibə silahı” kimi istehsal edilsə də, əslində, onun qurbanlarının yalnız 10 faizi hərbçilərdir. Qurbanların 90 faizi gündəlik həyatlarını davam etdirən, su gətirən, məktəbə gedən və ya tarlalardan məhsul toplayan günahsız insanlar, o cümlədən, qadınlar və uşaqlardır.

Torpaqlarımızın işğaldan azad edilməsi ilə bütün Azərbaycan xalqı, o cümlədən keçmiş qaçqın və məcburi köçkünlər 30 illik yurd həsrətinin də tezliklə başa çatacağını düşünürdülər. Amma mina təhlükəsi hazırda işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışı ləngidən əsas amilə çevrilib.

***

Qeyd etdiyimiz kimi, ərazilərimizin Ermənistan tərəfindən minalarla çirkləndirilməsi və minatəmizləmə məsələsi Prezident İlham Əliyev tərəfindən diqqətdə saxlanılır. Dövlətimizin başçısı bu məsələyə dair vaxtaşırı öz mövqeyini açıqlayır. Sonuncu dəfə oktyabrın 11-də MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri şurasının 53-cü iclasının iştirakçılarını qəbul edərkən etdiyi çıxışında Prezident İlham Əliyev deyib: “Məsələnin qısa tarixçəsi budur. Belə bir sual yarana bilər: bəs, üç həftə əvvəl nə baş verib? Belə ki, barəsində danışdığım Bəyannamənin imzalanmasına baxmayaraq, Ermənistan onun bəndlərini yerinə yetirmirdi, halbuki ən vacib bəndlərdən birində deyilirdi ki, bütün erməni silahlı qüvvələri Qarabağ ərazisindən çıxarılmalıdır. Buna əməl edilmədi, həm də nümayişkaranə şəkildə edilmədi. Hətta iki il ərzində – 2020-ci ildən 2023-cü ilin əvvəlinədək, Azərbaycanın Laçın rayonunda sərhədə nəzarət etmədiyi bir vaxtda, oraya sayı milyonlarla ölçülən nəhəng döyüş silah-sursatları daşınıb, bu isə tamamilə yaxın vaxtlarda aşkara çıxarılıb. Minalar gətirilib, ərazi əlavə olaraq minalanıb. Bütün bunların hamısı ona gətirib çıxarıb ki, azərbaycanlılar öz torpaqlarında həlak olmağa davam ediblər. İkinci Qarabağ müharibəsi başa çatandan sonra bizim 315 nəfər hərbi və mülki vətəndaşlarımız həlak olmuş və ağır şəkildə yaralanmışlar. Təəssüf ki, onların sayı hər həftə artır”.

Bəli, onların sayı hər həftə artır. Elə bu yazı çapa hazırlanarkən işğaldan azad edilmiş ərazilərdə 2 mülki şəxsin minaya düşdüyü barədə məlumat yayıldı. Daxili İşlər Nazirliyinin və ANAMA-nın mətbuat xidmətinin yaydığı birgə məlumatda bildirilib ki, oktyabrın 13-də Füzuli rayonunun Aşağı Veysəlli kəndi ərazisində minalardan təmizlənməyən ərazidə mina hadisəsi baş verib. Belə ki, tank əleyhinə mina partlayışı nəticəsində “Qazel” markalı maşının sürücüsü, 1987-ci il təvəllüdlü Əbilov Famil İlyas oğlu həlak olub, “Kamaz” tipli yük maşınının sürücüsü, 2000-ci il təvəllüdlü Bayramov Namaz Nəbadi oğlu xəsarət alıb.

İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Səbinə Əliyevanın yaydığı məlumatda isə bildirilib: “Təəssüf ki, Azərbaycan ərazilərinin işğaldan azad edilməsi ilə nəticələnmiş Vətən müharibəsinin bitməsindən ötən 3 ilə yaxın müddətdə minaya düşərək həlak olan və ya xəsarət alan şəxslərin sayı 330-u keçib və onların arasında mülki şəxslər üstünlük təşkil edir.

Mina terrorunu davam etdirən Ermənistanın iştirakçısı olduğu beynəlxalq sənədlərə əsasən, üzərinə düşən öhdəliklərə və bununla bağlı edilən davamlı çağırışlara laqeyd münasibət göstərməsi, dəqiq mina koordinatlarını ölkəmizə təqdim etməməsi insanların həyatına qəsd xarakteri daşıyır. Məhz bu səbəbdən minalarla çirkləndirilmiş ərazilərin təmizlənməsinə daha çox resurs və uzun zaman sərf olunur, yenidənqurma və qayıdış prosesi ləngiyir, eyni zamanda, işarələnməmiş minalar çoxsaylı insanların həyatını itirməsinə səbəb olur. Bütün bunları nəzərə alaraq, insanların həyat və sağlamlığının müdafiəsi naminə aidiyyəti beynəlxalq təşkilatları və dünya ictimaiyyətini ölkəmizin məruz qaldığı bu ciddi problemlə bağlı qəti mövqe nümayiş etdirməyə çağırıram”.

Məsələyə Xarici İşlər Nazirliyi də münasibət bildirib. Nazirliyin “X” platformasındakı paylaşımında deyilir: “Ermənistanın yerləşdirdiyi minalar azərbaycanlıları öldürməkdə və şikəst etməkdə davam edir. Bu gün 1 mülki şəxs həlak olub, 1 nəfər isə yaralanıb və qurbanların sayı 333-ə çatıb. Beynəlxalq ictimaiyyət bu təhlükəyə göz yummamalı və Ermənistanı mina basdırılan ərazilərin dəqiq xəritələrini verməyə çağırmalıdır”.

***

Onu da bildirək ki, Ermənistan silahlı qüvvələrinin qalıqlarının basdırdıqları minaların yaratdığı mənzərəni beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq və Azərbaycanda bu sahədəki problemlərin həllinə diqqəti yönəltmək məqsədilə bir qrup xarici QHT, vətəndaş cəmiyyəti fəalı “Minadan azad dünya üçün qlobal təşəbbüs” adlı petisiyaya başlayıb. Petisiya “Jotform” platformasında “Dünya Qafqazda sülh üçün” adlı beynəlxalq kampaniya çərçivəsində elan olunub. Petisiyada iştirak etməklə və onu imzalamaqla həmin təşkilatlar Azərbaycanın üzləşdiyi mina problemi ilə bağlı məlumatlı olduqlarını bir daha nümayiş etdirirlər.

Petisiyada mina və partlamamış hərbi sursatların mülki əhalinin sağlamlığı, həyatı və təhlükəsizliyi üçün ciddi təhlükə yaratdığı, münaqişələr başa çatdıqdan sonra da minaların insanları öldürməsi və şikəst etməsi vurğulanır. Diqqətə çatdırılıb ki, minalar ömürlük əlilliyə səbəb olur, ailələrin faciəsinə çevrilir.

Kampaniya BMT-yə üz tutaraq bəyan edib ki, dünyada 60 milyon insan hələ də mina təhlükəsi altındadır. Azərbaycan da dünyanın mina ilə ən çox çirklənmiş ölkələrindəndir. Müraciətdə müxtəlif ölkələrlə yanaşı, Azərbaycana da geniş yer ayrılıb. Bildirilir ki, Azərbaycan mina problemindən xeyli əziyyət çəkir. Son 30 ildə Azərbaycanda 3400-dən çox insan mina qurbanı olub. Kampaniya müəllifləri bəyan edirlər ki, Ermənistan Azərbaycan ərazilərini minalayıb, bu proses 44 günlük müharibədən sonra da dayanmayıb. Azərbaycan yalnız “Laçın” sərhəd nəzarət-buraxılış məntəqəsi qurduqdan sonra vəziyyət nəzarətə götürülüb.

Müəlliflər Ermənistanın yeni basdırılmış minaların da xəritələrini dərhal Azərbaycan dövlətinə təhvil verməsini tələb edirlər. Xarici QHT, vətəndaş cəmiyyəti fəalları Prezident İlham Əliyevin BMT-nin 18-ci Dayanıqlı İnkişaf Məqsədi kimi “Minasız dünya” məqsədinin elan edilməsi təşəbbüsünü alqışlayıblar. Onlar BMT-yə qlobal mina probleminə diqqəti artırmağı çağırış ediblər.

Yeni elan edilməsinə baxmayaraq, müraciət ciddi rezonans doğurub. Artıq 10-dək ölkədən 100-dən çox vətəndaş cəmiyyəti fəalı minalara qarşı qlobal səfərbərlik kampaniyasına qoşulub və bu problemin həllinə dəstək göstəriblər.

Göründüyü kimi, Azərbaycanın üzləşdiyi mina təhlükəsi artıq beynəlxalq aləmin də diqqətini cəlb edir. Ümid edək ki, bu cür təşəbbüslər ərazilərimizin minalardan təmizlənməsi prosesinə əlavə impuls verəcək. Eyni zamanda Ermənistan, nəhayət, beynəlxalq qınaqlardan nəticə çıxararaq minalanmış ərazilərin xəritəsini Azərbaycana təqdim edəcək.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



**Hafiz SƏFİXANOV, “Minalar Əleyhinə Azərbaycan Kampaniyası” İctimai Birliyinin sədri**

– Sentyabrın 19-20-də keçirilən antiterror tədbirləri təxminən yarım milyona qədər əlavə minanın Vətən müharibəsindən sonra 480 kilometrlik məsafədə basdırıldığını göstərir. Azərbaycandakı mina və partlamamış hərbi sursatların yaratdığı problemləri bir daha beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq üçün “Minadan azad dünya üçün qlobal təşəbbüs” adlı petisiya başladılıb. Rəhbərlik etdiyim təşkilat da kampaniyada iştirak edir. Biz də həmin petisiyanı əməkdaşlıq etdiyimiz xarici ölkələrdəki QHT-lərə və beynəlxalq təşkilatların rəhbərlərinə göndərmişik. Hazırda əsasən bu məsələ ilə məşğuluq. Əlavə suallar cavablandırılır, başqa məlumatlar istənildə, onları həmin bilgilərlə təmin edir və artıq müsbət cavablar da alırıq.

Bir neçə təşkilat petisiyaya qoşulduğunu bəyan edib. Eyni zamanda, bildiriblər ki, özləri yaşadıqları ölkələrdə və digər sosial şəbəkələrdə həmin məlumatları başqa əcnəbi QHT-lərin də kampaniyaya qoşula bilməsi üçün yayacaqlar. Başqa ölkələrdəki tanıdığımız təşkilatlara həmin bu kampaniyaya qoşulma ilə bağlı müraciəti göndərmişik. Zənnimcə, bu petisiya Azərbaycandakı mina problemlərinin həll olunması üçün çox vacibdir.

**Nil VATSON, Böyük britaniyalı jurnalist və vətəndaş cəmiyyəti fəalı**

– Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin minalardan təmizlənməsi ilə bağlı mühüm təşəbbüsünü dəstəkləmək lazımdır. Minalar bəşəriyyət üçün əsas təhlükələrdən biridir. Otuz ildən sonra ərazisini işğaldan azad edən Azərbaycanda bu məsələ ilə bağlı vəziyyət xüsusilə ağırdır. Burada yüz minlərlə mina yerləşdirilib. Bərpa prosesinə başlamazdan və insanlar evlərinə qayıtmazdan əvvəl torpaqlar minalardan təmizlənməlidir. Ona görə də mən hamını bu mühüm təşəbbüsü dəstəkləməyə çağırıram və Azərbaycana böyük uğurlar arzulayıram.

# Xaçaturyanın məhkəməsi oktyabrın 17-də olacaq

**Dünən qanunsuz erməni silahlı birləşmələrinin üzvləri tərəfindən 1991-ci il dekabrın 22-də Xocalı rayonunun Meşəli kəndində soyqırımı törədənlərdən biri – Vaqif Xaçaturyanın cinayət işi üzrə ilk iclas keçirilib.**



Yasamal Rayon Məhkəməsində Bakı Hərbi Məhkəməsinin hakimi Camal Ramazanovun sədrliyi ilə keçirilən iclasda təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib. Ona hüquq və vəzifələri izah edilib. Vaqif Xaçaturyanın hüquqlarını Vəkillər Kollegiyasının üzvü Natiq Bəybalayev müdafiə edir.

Prosesdə dövlət ittihamçıları Baş prokurorun böyük köməkçisi, 3-cü dərəcəli dövlət ədliyyə müşaviri Müqəddəs Sultanov və ədliyyə müşaviri Cövdət Mehrəliyevdir. Zərərçəkmiş şəxs qismində isə Xocalı Rayon İcra Hakimiyyətinin nümayəndəsi, eləcə də zərərçəkən Bəhlul Hümbətovun hüquqi varisi Meşəli kənd sakini Hüseyn Hümbətov iştirak ediblər.

Dövlət ittihamçısı M.Sultanov prosesin məhkəmə baxışına verilməsini təklif edib. Məhkəmə müşavirəyə gedib. Sonra məhkəmənin baxış iclası oktyabrın 17-nə təyin edilib.

Vaqif Xaçaturyan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103 (soyqırımı) və 107-ci (əhalini deportasiya etmə və ya məcburi köçürmə) maddələri ilə təqsirləndirilir.

Xatırladırıq ki, Vaqif Xaçaturyanın iştirakı ilə millətçi ermənilərdən ibarət silahlı banda Meşəli kəndində yerli azərbaycanlılara qarşı soyqırımı, təqib etmə, didərgin salma və digər hüquq pozma cinayətləri törədib. Ümumilikdə, 27 nəfər öldürülüb, 21 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb, 2 nəfər girov götürülüb.

2013-cü il noyabrın 21-dən axtarışda olan V.Xaçaturyan 2023-cü il iyulun 29-da “Laçın” sərhəd-buraxılış məntəqəsində saxlanılaraq istintaqa təqdim olunub.

**XQ**



# İki avtomobil minaya düşüb

**Oktyabrın 13-də saat 5 radələrində işğaldan azad edilmiş Xocavənd rayonu, Haramı düzü ərazisində 2 yük maşınının minaya düşməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.**

Rayon prokurorluğundan bildirilib ki, araşdırma zamanı hadisə nəticəsində “Qazel” markalı avtomobilin sürücüsü, 1988-ci il təvəllüdlü Famil Əbilovun ölməsi və “Mercedes-Benz Atego” markalı avtomobilinin sürücüsü, 2000-ci il təvəllüdlü Namaz Bayramovun isə müxtəlif dərəcəli bədən xəsarətləri alması müəyyən edilib.

Faktla bağlı Xocavənd Rayon Prokurorluğunda araşdırma aparılır.

***XQ***

# Asiya İnkişaf Bankı ilə əməkdaşlıq çoxşaxəli və səmərəlidir

## Nüfuzlu maliyyə qurumu "Bank Respublika" ilə layihələri davam etdirir

**Son illər ölkəmizin maliyyə-bank sisteminin sağlamlaşdırılması və monetar siyasətin üzən məzənnə rejimi üzərində təkmilləşdirilməsi, həmçinin beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində çoxsaylı layihələr həyata keçirilib. Dövlət başçısının 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiqlənən "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"də bununla bağlı nəzərdə tutulan müəyyən tədbirlərin icrası diqqət mərkəzində saxlanılıb. Respublikada investisiya mühitinin daha da yaxşılaşdırılmasına müsbət təsir göstərən məsələlərin həlli, beynəlxalq maliyyə institutları ilə əlaqələrin genişləndirilməsi də gerçəkləşdirilib.**




Asiya İnvestisiya Bankı (AİB) bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Bu maliyyə təşkilatının ölkəmizlə əlaqələri dövlət qurumları ilə yanaşı, həm də özəl sektoru əhatə edir və Azərbaycan hökumətinin inkişaf strategiyasına uyğun həyata keçirilir.

AİB-in ölkəmizdə icra etdiyi ilk layihələr Mingəçevirdə keçmiş məcburi köçkünlər üçün evlərin tikintisi, Şəki rayonunda sel daşqınlarının qarşısının alınması üçün bəndlərin inşası olub. Belə ki, AİB 2003-cü ildə yoxsulluq səviyyəsi ölkə üzrə göstəricidən yuxarı olan və daşqınların fəsadlarından əziyyət çəkən 12 regionun mühafizəsi üçün 22 milyon ABŞ dolları həcmində kreditin ayrılmasını təsdiqləyib. Həmin layihədən beş şəhərin və 43 kəndin əhalisi faydalanıb və bu, daşqınlar zamanı itkilərlə üzləşən 240 mindən çox insanın həyat səviyyəsinin yaxşılaşdırılmasına müsbət təsir göstərib.

Bank sonrakı mərhələlərdə respublikamızla bağlı əməliyyatlara dair Bizness Planını təsdiq edərək öz fəaliyyətini daha çox nəqliyyat, energetika, su təchizatı və kanalizasiya sektorlarında davam etdirib. Azərbaycan hökumətinin maliyyə dəstəyi ilə ölkəmizin 5 şəhərində su və kanalizasiya xətlərinin yenidən qurulması layihəsini həyata keçirib. Maliyyə institutu energetika sektorunda da səmərəli fəaliyyət göstərib, Mingəçevirdən Abşeronadək 280 kilometrlik və "Şimal" Elektrik Stansiyasından Hövsana qədər 97 kilometrlik olan elektrik ötürücü xətlərin tikintisinə önəmli töhfə verib.

Burada mühüm bir məqamı da xatırlatmaq istərdik. AİB-in təşəbbüsü ilə Prezident İlham Əliyevlə sözügedən maliyyə institutunun prezidenti Masatsuqu Asakava arasında 2020-ci il iyunun 1-də keçirilən videokonfransda dövlətimizin başçısı respublikamızın bankla əməkdaşlığını yüksək qiymətləndirərək deyib: "Mən xatırlayıram ki, 5-6 il bundan əvvəl bizim maliyyə dəstəyinə ehtiyacımız olanda Asiya İnkişaf Bankı çox tez reaksiya göstərdi və Cənub Qaz Dəhlizi layihəsinə kredit verən ilk böyük beynəlxalq banklar arasında birinci oldu. Bu çox mühüm və vaxtında göstərilən dəstək Azərbaycanın geniş kreditorlar qrupu yaratmasını şərtləndirdi. Həqiqətən də bu, mənə çox xoş təsir bağışladı və mən bir daha çox vaxtında göstərilmiş bu dostcasına yanaşmaya görə minnətdarlığımı ifadə etmək istəyirəm. Biz bunun əməkdaşlığın çox yaxşı əlaməti olduğunu nəzərə aldıq".

Onu da deyək ki, AİB-in son illərdəki geniş portfeli də diqqət çəkir. Suvarma və təhsillə bağlı icra olunacaq müəyyən layihələrin icrası, həmçinin özəl sektor, infrastrukturun inkişafı, kiçik və orta müəssisələrə dəstək məsələlərinin həlli ilə əlaqədar görülən işlər də bunun bariz ifadəsidir.

AİB ilə ölkəmiz bu gün birgə biznes əməliyyatları strategiyasını uğurla reallaşdırır. Bu strategiya çərçivəsində beynəlxalq bank Azərbaycanla əlaqədar kredit prioritetlərini müəyyənləşdirməyə çalışır. Eyni zamanda bank respublikamızla əlaqədar mühüm texniki yardım proqramlarında fəal iştirak edir.

Ümumiyyətlə, AİB Azərbaycan Hökuməti ilə həyata keçirdiyi layihələrdə qarşıya qoyduğu məqsədləri–insanların həyat şəraitinin yaxşılaşdırılması, yoxsulluğun azaldılması, infrastrukturun müasir tələblər səviyyəsinə qaldırılması kimi vəzifələri uğurla yerinə yetirir.

Beynəlxalq maliyyə qurumu ölkəmizdə səmərəli fəaliyyətini hazırda da davam etdirir, maliyyə sektorunun inkişafını daha da sürətləndirmək üçün layihələr reallaşdırır. Məsələn, bir neçə gün əvvəl Azərbaycanda real sektoru dəstəkləyən ölkənin aparıcı banklarından biri olan "Bank Respublika" və AİB arasında kredit sazişi imzalanıb. Sazişə əsasən, banka 20 milyon ABŞ dolları ekvivalenti həcmində milli valyutada irihəcmli kredit ayrılacağı nəzərdə tutulub.

Məlumatda qeyd edilir ki, cəlb edilən vəsait həm "Bank Respublika"ya, həm də ölkə iqtisadiyyatı üçün prioritet sahə olan real sektora kredit dəstəyinin gücləndirilməsinə, xüsusilə mikro, kiçik və orta müəssisələrin maliyyələşdirilməsinə, o cümlədən gənclərin və qadınların sahibkarlıq fəaliyyətinin maliyyələşdirilməsinə imkan verəcək. "Bank Respublika"nın geniş filial şəbəkəsi sayəsində cəlb olunan vəsait Azərbaycanın bütün regionlarındakı sahibkarların dəstəklənməsinə şərait yaradacaq.

"Bank Respublika"nın İdarə Heyətinin sədri Tariyel İsmayılov mediaya müsahibəsində AİB-in uzun fasilədən sonra Azərbaycanın maliyyə bazarına məhz adıçəkilən bank ilə birgə qayıtmasını yüksək qiymətləndirir. T.İsmayılov qeyd edir ki, tərəflər arasında sazişin imzalanması həmin beynəlxalq maliyyə institutunun həm ölkəmizdə bank sisteminin sabitliyinə, həm də "Bank Respublika"nın etibarlılığına inamının daha bir mühüm göstəricisidir. AİB kimi aparıcı beynəlxalq maliyyə təşkilatları ilə tərəfdaşlıq "Bank Respublika"ya real sektoru daha sərfəli şərtlərlə dəstəkləmək imkanı yaradır və bununla da Azərbaycanda sahibkarlığın inkişafına töhfə verir.

AİB-in Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Candice McDeiganın "Bank Respublika" və AİB arasında kredit sazişinin imzalanması ilə bağlı fikirləri də diqqət çəkir. O, bildirir ki, kiçik və orta sahibkarlıq respublikamızda gəlirlərin artırılması və iş yerlərinin yaradılması üçün mühüm əhəmiyyət kəsb edir, çünki həmin sahibkarlıq subyektləri əmək qabiliyyətli əhalinin üçdə ikisindən çoxunun işlə təminatını reallaşdırır, həmçinin aqrar sektorda qeydiyyatdan keçən sahibkarlıq subyektlərinin demək olar ki, 40 faizi qadınlara məxsusdur. "Bank Respublika" AİB-in uzun illərdir ki, etibarlı tərəfdaşıdır və onun fəaliyyəti bu beynəlxalq maliyyə institutunun ərzaq təhlükəsizliyini yaxşılaşdırmaq, kənd təsərrüfatını gücləndirmək və qadınların maliyyə, təlim və bazarlara çıxışına kömək etmək məqsədləri ilə uzlaşır.

Sonda xatırladaq ki, "Bank Respublika" 1992-ci ildə yaradılıb və Azərbaycanın aparıcı beş bankından biridir. Bu maliyyə qurumunun səhmdarları arasında Almaniyanın ən böyük maliyyə institutlarından olan "Sparkassen International Development Trust" (Sparkassen–Finanzgruppe maliyyə qrupunun üzvü) də var. "Bank Respublika", eyni zamanda ölkəmizin bank sektorunda ən yüksək beynəlxalq reytinqlərdən birinə – "Sabit" proqnozlu "B2" reytinqinə (Moody's) malikdir.

***Vaqif BAYRAMOV***
***XQ***



# İllik inflyasiyanın 9,5 faiz olacağı proqnozlaşdırılır

**İqtisadiyyat Nazirliyi tərəfindən antiinflyasiya tədbirləri nəzərə alınaraq 2023-cü ilin sonuna orta illik inflyasiyanın birrəqəmli səviyyədə 9,5 faiz olacağı proqnozlaşdırılır.**

Bu fikirlər İnflyasiya və Qiymət Monitorinqi üzrə İşçi qrupunun iclasında səsləndirilib. Qeyd edilib ki, Statistika Komitəsinin son məlumatına görə, 2023-cü ilin yanvar-sentyabr aylarında orta illik inflyasiya 10,9 faiz olub. Bu dövrdə illik inflyasiya 5,1 faiz təşkil edib.

İclasda qlobal inflyasiya səviyyəsində, xüsusilə dünya ərzaq qiymətlərində azalma meyillərinin olduğu qeyd edilib. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının açıqladığı son məlumata əsasən, sentyabr ayında ərzaq qiymətləri indeksi son bir ildə 10,7 faiz ucuzlaşıb.

***XQ***



# İqtisadiyyata investisiya qoyuluşu çoxalır

**Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar–sentyabr aylarında ölkəmizdə əsas kapitala 12 milyard manat və yaxud ötən ilin eyni dövrü ilə müqayisədə 21 faiz çox vəsait yönəldilib.**

Son 1 ildə neft-qaz sektoruna investisiyalar 18,1 faiz, qeyri-neft-qaz sektoruna investisiyalar isə 23,2 faiz artıb.

Hesabat dövründə istifadə olunmuş vəsaitin 7 milyard 482 milyon manatı və yaxud 58,8 faizi məhsul istehsalı sahələrinə, 4 milyard 607,8 milyon manatı və yaxud 36,2 faizi xidmət sahələrinə, 639,1 milyon manatı və yaxud 5 faizi isə yaşayış evlərinin tikintisinə sərf olunub.

9 ay ərzində əsas kapitala yönəldilmiş vəsaitlərin 9 milyard 839,7 milyon manatını və yaxud 77,3 faizini daxili vəsaitlər təşkil edib, 9 milyard 293,3 milyon manatı və yaxud 73 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

Əsas kapitala yönəldilmiş vəsaitin ümumi dəyərində müəssisə və təşkilatların öz vəsaitləri 45,4 faiz, büdcə vəsaitləri 40,6 faiz, əhalinin şəxsi vəsaitləri 6,2 faiz, bank kreditləri 2,6 faiz, sair vəsaitlər isə 5,2 faiz paya malik olub.

***XQ***

# BP gənc sahibkarları himayə edir

**BP şirkəti və tərəfdaşlarının ölkəmizin Qərb bölgəsində həyata keçirdikləri sosial proqramlardan biri də də "Kənd yerlərində gənc sahibkarlara dəstək layihəsidir. Bu layihə biznesin inkubasiyası modelinin tətbiqi vasitəsilə kənd yerlərində yaşayan gənc sahibkarlara dəstək məqsədi daşıyır. BP-nin Samuxa təşkil etdiyi mediaturda bu barədə ətraflı məlumat verildi.**

Qeyd olundu ki, layihənin 2021-ci ilin aprelindən 2022-ci ilin sentyabrınadək davam edən birinci mərhələsində Samux, Goranboy və Şəmkir rayonlarından seçilmiş 30 nəfər gəncə biznes qurulması və idarə olunması məqsədilə təlim keçirilib. Həmin müddətdə 29 biznes plan işlənib hazırlanıb. İş quranlar lazımi avadanlıqlarla təmin edilib. Bildirildi ki, 16 ay davam edən bu mərhələ çərçivəsində BP və tərəfdaşları tərəfindən 205 min 50 manat vəsait xərclənib.

Ötən müddətdə əldə edilən uğurlu nəticələr layihənin davamlı olması üçün yaxşı zəmin yaradıb. Buna görə də cari ilin fevral ayında layihənin ikinci mərhələsinə start verilib. Layihənin növbəti mərhələsi ilə bağlı media nümayəndələrinə məlumat verilərək bildirildi ki, ötən müddətdə Samux, Goranboy, Ağdaş və Yevlax rayonlarından olan 65 nəfərə biznesin qurulması və idarə olunması üçün təlim keçirilib. Hər bir gənc sahibkara 4 min manatlıq avadanlıq verilib. Bundan əlavə, 7 aylıq mentorluq dəstəyi göstərilib. Gələn ilin oktyabrınadək davam edəcək ikncı mərhələ üçün isə 495 min 285 manat vəsait ayrılıb.

Mediatur çərçivəsində kütləvi informasiya vasitələrinin nümayəndələri Samux rayonunun Lək kəndində "Kənd yerlərində sahibkarlığa dəstək" layihəsinin iştirakçısı sahibkar Elmir Vəliyevin avtomobil təmiri məntəqəsinə baxış keçirdilər.

**"Kənd İnkişafına Dəstək" İctimai Birliyinin sədri Sübhan Əsgərov layihə barədə fikirlərini jurnalistlərlə bölüşdü:**

– BP və tərəfdaşlarının həyata keçirdiyi bu layihə kənd yerlərində yaşayan imkanları az, amma məşğulluğa çox meyilli olan gəncləri seçib onlara buzneslərini qurmağa və davamlı gəlir əldə etməyə hərtərəfli dəstək göstərmək baxımından təqdirəlayiqdir. Layihənin bir özəlliyi də ondadır ki, reallaşdırıldığı ilk gündən sahibkarın bütün fəaliyyəti diqqətlə izlənilir, donor təşkilat sonadək onun yanında olur.

**Seçim prosesinə gəldikdə isə, S.Əsgərov bildirdi ki, bu işdə kəndin bələdiyyəsi, icra nümayəndəliyi və yerli icmanın fəallarının köməyindən istifadə olunur:** – Məhz onların təqdim etdikləri siyahı əsasında fəal, məşğulluğa meyilli gənclər müəyyən olunaraq imkanları öyrənilir. Donor təşkilatımız olan BP və tərəfdaşları ilə razılığa gəlindikdən sonra həmin gənclər təlimlərə cəlb olunur. Təlim prosesində gənclərə biznesin keçirilməsi, maya dəyərinin hesablanması, işin aparılması metodları və s. öyrədilir. Bütün bunlar donor tərəfindən təsdiqləndikdən sonra benefisarlara biznes planların hazırlanmasında lazımi kömək göstərilir, gənclərə peşələr üzrə xüsusi təlimlər keçirilir.



Hazırda kənd yerlərində elə gənclər var ki, işi bilir, amma köhnə avadanlıqlarla istədiyinə nail ola bilmir. Bacarığı, peşə vərdişləri olan həmin gənclərin yeni avadanlıq almağa isə imkanları yoxdur. BP və tərəfdaşlarının maliyyə dəstəyi ilə son dərəcə motivli olan gənclər layihəyə qoşulduqdan sonra bizneslərini genişləndirib yaxşı nəticələr əldə ediblər.

**Layihənin regional meneceri Xudayar Gülmalıyev isə bildirdi:**

– Kənd yerlərində gənc sahibkarlara dəstək" layihəsinin 9 aylıq birinci mərhələsi çərçivəsində heyranedici nəticələrə imza atılıb. Onun dediyinə görə, layihənin ilk mərhələsinin əhatə etdiyi rayonların 7 bələdiyyəsi üzrə 9 kənddən seçilmiş 30 nəfər benefisarın əksəriyyəti gənclər olmaqla 11 nəfəri qadın, 19 nəfəri isə kişilərdən ibarət olub. BP-nin mütəxəssisləri tərəfindən seçim prosesi yoxlanıldıqdan sonra layihənin icrasına başlanılıb. Layihə menecerinin sözlərinə görə, artıq 30 gənc benefisar il yarımdır ki, biznes sahəsində uğurla fəaliyyət göstərir. "Ən maraqlısı isə odur ki, öz istəklərinə uyğun olaraq kənd təsərrüfatı sahəsini seçən 17 nəfər sahibkara Avstriya cinsi sayılan simmental sortundan olan inəklər verilib. Həmin heyvanların hamısı balalayıb. Hər biri də minimum 15 litr süd verir. Hətta 1 yaşlı balanın çəkisi 440 kiloqrama çatır. Bu isə, heyvandarlıq sahəsində bir nümunədir"– deyə o əlavə etdi.

**Elmir Vəliyev isə bildirdi ki,** uşaqlıqdan ən böyük arzusu maşın ustası kimi fəaliyyət göstərmək olub. Ordudan qayıdandan sonra atasının yanında maşın təmiri ilə məşğul olan gənc Elmirin maşın təmiri üçün nə münasib yeri olub, nə də lazımi avadanlıqları. Amma BP şirkətinin həyata keçirdiyi "Kənd yerlərində gənc sahibkarlara dəstək" layihəsi onu qısa müddətdə arzusuna qovuşdurub. Elmir bələdiyyə sədrindən layihə haqqında məlumat alan kimi ona qoşulmaq qərarına gəlib. Gəncədə 5 günlük təlim keçdikdən sonra maşın təmiri üçün vacib olan avadanlıqları əldə edib.

Gənc sahibkar dedi ki, BP-nin ölkəmizdə reallaşdırdığı sosial layihələrdən az-çox məlumatı olduğundan həmin avadanlıqlarla təmin olunacağına ilk gündən əmin olub. İndi özü və köməkçisi bu layihədən yararlanaraq əməlli-başlı qazanc əldə edirlər. Buna görə BP və tərəfdaşlarına minnətdarlığını bildirən Elmir usta gələcəkdə biznesini daha da genişləndirməkdə israrlıdır...

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Orta aylıq əməkhaqqı 11 faiz yüksəlib

**9 ayda ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 11 faiz artaraq 923 manata çatıb.**



Dövlət Statistika Komitəsinin məlumatında bildirilir ki, iqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə, sığorta, peşə, elmi və texniki fəaliyyət, eləcə də informasiya-rabitə sahələrində orta aylıq əməkhaqqı daha yüksək olub.

Bu il sentyabrın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında çalışan işçilərin sayı 1 milyon 707 min nəfər olub.Onlardan 8 min 878 nəfəri iqtisadiyyatın dövlət sektorunda, 819 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.

***XQ***

# TÜRKSOY Daimi Şuranın 40-cı iclasını Şuşada keçirdi

**Dünən Şuşada TÜRKSOY Mədəniyyət Nazirləri Daimi Şurasının 40-cı iclası keçirilib. Tədbir Mədəniyyət Nazirliyi və TÜRKSOY-un birgə təşkilatçılığı ilə gerçəkləşib.**



Tədbirdə çıxış edən mədəniyyət naziri Adil Kərimli iclasın əhəmiyyətindən danışıb. TÜRKSOY-un Baş katibi Sultan Raev deyib ki, bu il Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi, Türkiyə Cümhuriyyətinin yaranmasının 100 illiyi və TÜRKSOY-un isə 30 illik yubileyləridir.

Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev iclasın mühüm qərarlarla yadda qalacağını bildirib.

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov, Qırğız Respublikasının mədəniyyət, informasiya, idman və gənclər siyasəti nazirinin birinci müavini Kayrat İmanaliyev, Özbəkistan mədəniyyət nazirinin birinci müavini Bahodir Axmedov, Türkiyə mədəniyyət və turizm nazirinin müavini Serdar Çam, Şimali Kipr Türk Respublikası Baş nazirinin müavini – turizm, mədəniyyət, yaşayış və ətraf mühit naziri Fikri Ataoğlu, Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) Baş katibi Mehmet Süreyya Er, Beynəlxalq Türk Akademiyasının prezidenti Şahin Mustafayev iclasın əhəmiyyətindən danışıblar. Vurğulanıb ki, iclasda alınacaq qərarlar Türk dünyasının gələcək inkişafına öz töhfəsini verəcək.

**XQ**

# Şuşada I Türk Dünyası Mədəniyyət Forumu





**Oktyabrın 13-də Şuşada Mədəniyyət Nazirliyi, TÜRKSOY və Beynəlxalq Türk Akademiyasının təşkilatçılığı ilə Ümummilli lideri Heydər Əliyevin 100 illiyinə həsr olunmuş I Türk Dünyası Mədəniyyət Forumunun açılışı olub.**

Əvvəlcə bu il "Türk dünyasının mədəniyyət paytaxtı" missiyasını yerinə yetirən Azərbaycanın muğam-sənət beşiyi olan Şuşa şəhərinə həsr olunmuş videoçarx nümayiş etdirilib, "Dərvişlər" adlı ədəbi-bədii kompozisiya təqdim olunub.

Mərasimin açılışında çıxış edən mədəniyyət naziri Adil Kərimli bildirib ki, Şuşanın 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi Türk dünyası tərəfindən Şuşaya olunan xüsusi diqqətin göstəricisidir. O, vurğulayıb ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələri 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycanın işğal altında olan torpaqlarını, həmçinin Şuşanı azad edib. Hazırda həmin ərazilərdə yüksək səviyyəli bərpa-quruculuq işləri davam edir.

Nazir bildirib ki, türk dünyası birliyinin təmin olunması, ortaq milli dəyərlər ətrafında birləşdirilməsi məhz Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

TÜRKSOY-un Baş katibi Sultan Raev təşkilatın ortaq türk mədəniyyətinin, dilinin, tarixinin, mədəni irsinin qorunması, inkişaf etdirilməsi, dünyada tanıdılması və gələcək nəsillərə ötürülməsi məqsədilə qurulduğunu vurğulayıb.

S.Raev TÜRKSOY-un türkdilli xalqlar və ölkələr arasında mədəniyyət, incəsənət sahəsində əlaqələrin inkişaf etdirilməsi istiqamətində böyük işlər gördüyünü deyib.

Tədbirdə TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev, Türkdilli Ölkələrin Parlament Assambleyasının Baş katibi Mehmet Süreyya Er, BTA-nın prezidenti, akademik Şahin Mustafayev, AMEA-nın prezidenti akademik İsa Həbibbəyli və Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar çıxış ediblər.

Bildirilib ki, türk xalqlarının birliyi hər zaman böyük əhəmiyyət kəsb edib.

Qeyd edək ki, forum işini üç panel üzrə davam etdirir. Panellərdə "Türk dilləri və Ədəbiyyatları: Differensiasiya və inteqrasiya", "Mədəni və tarixi irsin qorunması və bərpasında ən yaxşı təcrübələr" və "Yaradıcı Sənayelər və innovasiyalar" mövzularında müzakirələr aparılır.

**XQ**



# Şimali Kipr lideri Bakıda

**Oktyabrın 13-də Bakıda "Şimali Kipr Türk Respublikası Mədəniyyət və Təqdimat Günləri" çərçivəsində sərgi təşkil olunub.**

Azərbaycanda səfərdə olan Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar sərgiyə baxıb.

Sərgidə inşaat, mətbəx, otelçilik və digər sahələrlə bağlı stendlər nümayiş etdirilir.

*

Həmin gün ADA Universitetində İnkişaf və Diplomatiya İnstitutunun təşkilatçılığı ilə ölkəmizdə səfərdə olan Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatarın tələbələrlə görüşü keçirilib.

Tədbiri giriş nitqi ilə açan universitetin rektoru Hafiz Paşayev qonağı salamlayıb.

Daha sonra çıxış edən Ersin Tatar qardaş ölkə Azərbaycanla siyasi, iqtisadi, sosial və digər sahələrdə əməkdaşlığın davam edəcəyinə əminliyini vurğulayıb. Onun sözlərinə görə, Şimali Kipr və Azərbaycanın xalqları oxşar taleləri yaşayıblar. Qeyd edib ki, Azərbaycanla eyni millətin övladları olan Şimali Kipr türklərinin kədəri və sevinci birdir.

Ölkəsinin ali təhsil müəssisələrində azərbaycanlı tələbələrin də təhsil aldığını vurğulayan Ersin Tatar bu sahədə əməkdaşlığın gücləndirilməsi niyyətində olduğunu qeyd edib.

Sonda Şimali Kipr lideri tələbələrin suallarını cavablandırıb.

**XQ**

# Ağsaqqallar cəmiyyətin qızıl fondudur

**Paytaxtın Nəsimi rayonunun Ağsaqqallar Şurasının hesabat yığıncağı keçirilib. "Ağsaqqallar milli-mənəvi dəyərlərimizin qızıl fondudur" devizi ilə təşkil edilən toplantıda yaşlı nəslə dərin hörmət və ehtiram olaraq rayonun peşə sahibi olan müxtəlif ictimai fəalları da iştirak edib.**



Nəsimi Rayon Ağsaqqallar Şurasının sədri, professor Vaqif Şadlinski hesabat məruzəsində qurum ətrafında cəmləşmiş yaşlı nəslin rayonun ictimai-siyasi həyatındakı fəal iştirakından, qazanılan uğurlara onların verdiyi töhfədən geniş bəhs edib, qarşıda duran vəzifələrdən danışıb.

Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov xalqımızda ağsaqqal institutunun yüksək nüfuzunu qeyd edib, böyük məsləhətinin və xeyir-duasının hər işdə gərəkli olduğunu söyləyib. O, Ağsaqqallar Şurasının nəsillər arasında varisliyi təmin etmək sahəsində gördüyü faydalı işlər, rayonda onların fəaliyyəti üçün yaradılan şərait barədə də məmnunluqla söz açıb.

Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Eldar Quliyev ölkəmizdə yaşlı nəslə göstərilən dövlət qayğısından, ağsaqqalların ictimai həyata gətirdiyi müdriklik və səmbaldan danışıb, rayon ağsaqqallarına bundan sonrakı fəaliyyətlərində yeni uğurlar arzulayıb.

Yığıncaqda Nəsimi Rayon Ağsaqqallar Şurası idarə heyətinin yeni tərkibi formalaşdırılıb. Vaqif Şadlinski yenidən şuranın sədri, Xalid Kərimov sədrin birinci müavini, İmamverdi Həmidov isə sədr müavini seçiliblər.

Sonda rayon həyatının müxtəlif sahələrində uğurlar qazanmış, ümumi işə dəstək vermiş bir qrup ictimai fəala İcra Hakimiyyətinin və Ağsaqqallar Şurasının təşəkkürnamələri və hədiyyələri təqdim olunub.

**T.RÜSTƏMLİ**
**XQ**

Gələcəyə aparan enerji siyasəti

# Qarabağ tükənməz enerji qaynağıdır

## Köhnə SES-lər müasirləşdirilir, yeniləri yaradılır

**Azərbaycanın yerli su ehtiyatlarının 25 faizi (2 milyard 560 milyon kubmetr) Qarabağ və Şərqi Zəngəzurda formalaşır. Regionun Tərtər, Bərgüşad, Həkəri kimi əsas çaylarının enerji potensialı böyükdür. Bu çayların üzərində əvvəllər su elektrik stansiyaları tikilib. Onlardan biri 1976-cı ildə Tərtərçayın üzərində Sərsəng Su Anbarı ilə birgə inşa edilib. Stansiya hər birinin gücü 25 MVt olan 2 turbindən ibarətdir, illik elektroenerji istehsalı isə 90 milyon KBT saatdır.**

Sərsəng SES-in il ərzində istehsal etdiyi elektrik enerjisi 81,9 milyon kVt saat olub. Sonralar işğal altına düşən stansiya 30 ildən sonra düşmən işğalından azad edilib. Bu müddət ərzində kompleksə vaxtında lazımi texniki xidmət göstərilmədiyindən istifadə olunan avadanlıqlar köhnəlib. Deməli, ilk növbədə, onun texniki vəziyyətinin qiymətləndirilməsinə, daha sonra isə bərpa işlərinin aparılmasına ehtiyac duyulur.



**Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin baş məsləhətçisi Sarvan Ağayev Sərsəng Su Anbarında hazırda qiymətləndirmə işlərinin həyata keçirildiyini bildirdi:**

- "Mühüm strateji əhəmiyyətə malik olan bu su anbarı və Sərsəng SES Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə tikilib. 1976-cı ildə ümummilli lider həmin infrastrukturların açılışında şəxsən iştirak edib. Mərasimdə çıxış edən Azərbaycan rəhbəri Sərsəng SES və su anbarının əhatə etdiyi rayonların həyatında önəmli rol oynayacağını bildirib. Ulu öndər sonralar bu şərəfli tarixi xatırlayarkən deyib: "Mən xoşbəxtəm ki, bu işlərin həyata keçirilməsinin böyük bir hissəsində bilavasitə iştirak etmişəm və o dövrdə - 1970-80-ci illərdə Azərbaycanın rəhbəri olduğum zaman ölkəmizdə müstəqil elektrik enerjisi potensialının yaradılmasına nail olmuşam".

Artıq Sərsəng SES-i və su anbarını ordumuz işğaldan azad edib. 30 il arzində bu infrastrukturlarda təmir-bərpa işləri aparılmayıb. Sərsəng Su Elektrik Stansiyası Qarabağda əsas elektrik enerjisi mənbələrindən biridir. Texniki qiymətləndirmədən sonra SES-də təmir-bərpa işləri aparılacaq. Bu işlər müasir texniki tələblərə uyğun şəkildə qurularaq, Avropa standartları səviyyəsinə çatdırılacaq, daxili enerji tələbatının ödənilməsinə xidmət edəcək.

Sərsəng Su Anbarı ərazisindən 20 kilometr aşağıda isə Suqovuşan Su Anbarı va "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su elektrik stansiyaları yerləşir. Onlar da Ulu öndərin təşəbbüsü ilə inşa olunub. Bu ərazi II Qarabağ müharibəsində işğaldan azad edilib. Həm su anbarı, həm də stansiyalar keçən müddət ərzində əsaslı təmir olunub. Anbarın divarlarına beton örtüyü vurulub, oradakı bütün avadanlıqların əsaslı təmiri hayata keçirilib, magistral kanalda zəruri işlər görülüb.

Bundan əvvəl isə işğalçıların yararlı ehtiyat hissələrini söküb daşıdığı, apara bilmədiklərini isə dağıtdığı "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su elektrik stansiyalarının maşın zalları, aqreqatları, generatorları, o cümlədən idarəetmə mərkəzinin binası, panellər, yarımstansiyanın gərginlik va cərəyan transformatorları təmir edilib və ya yeniləri ilə əvəzlənib.

Gücü 4,8 meqavat olan "Suqovuşan-1" və gücü 3 meqavat olan "Suqovuşan-2" kiçik su elektrik stansiyalarını qidalandıran Tərtər elektrik yarımstansiyasından Suqovuşan qəsəbəsi və Talış kəndini elektrik enerjisi ilə təmin edən xəttin çəkilişi zamanı ilk dəfə olaraq izolyasiyalı kabeldən istifadə olunub. Bu, ənənəvi hava elektrik xətlərinə nisbətən daha təhlükəsiz və şəbəkələrin dayanıqlı işini təmin etmək üçün texniki baxımdan alverişli innovativ həlldir.

Yeni kabel xətlərinin tətbiqi ilə yüksək gərginlik xətlərinin bilavasitə altında, yaxud yaxınlığında yerləşən yaşayış və əkin sahələrinin, həmçinin insanların fəaliyyət təhlükəsizliyi dəfələrlə artır, təbiət hadisələrinin elektrik verilişi xətlərinə təsiri isə aradan qalxır. İzolyasiya olunmuş yeni tip kabel xətlərinin istifadəsi enerji sisteminin dayanıqlılıq, etibarlılıq va səmərəlilik göstəricilərini beynəlxalq standartlara yaxınlaşdırmağa imkan verir. İzolyasiyalı kabel ölkəmizdə ilk dəfə Suqovuşanda tətbiq olunub.

Qeyd edək ki, 2021-ci il oktyabrın 3-də Tərtər çayı üzərində inşa olunmuş "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su elektrik stansiyalarının yenidənqurmadan sonra açılışı olub. Sonradan su anbarında təmir-bərpa işləri aparılarkən hər iki stansiya işini müvəqqəti dayandırmışdı. Təmir-bərpa işləri başa çatandan sonra anbar yenidən su ilə dolduruldu. Oradan öz axını ilə suyun verilməsi təmin edildi. Hər iki stansiya yenidən fəaliyyətə başladı və ümumi sistemə qoşuldu. Bu barədə Energetika Nazirliyinin açıqlamasından aydın olur ki, yenidən fəaliyyətə başladığı dövrdən 2023-cü il oktyabrın 1-dək hər iki stansiyada, ümumilikdə, 21.8 milyon kVt saat elektrik enerjisi istehsal edilib.

"Azərenerji" ASC-nin mətbuat mərkəzinin rəhbəri Teymur Abdullayev isə bildirdi: - "Stansiyalarda istehsal olunan elektrik enerjisi ilkin olaraq Suqovuşan qəsəbəsi, Talış kəndi də daxil olmaqla yaxın ərazilərə verilir. Daha sonra isə enerjipaylayıcı elektrik şəbəkəsinin yeni çəkilən elektrik xətləri vasitəsilə digər istiqamətlərə də ötürülür. Bütün bunlar ölkə rəhbərinin həyata keçirdiyi çoxşaxəli inkişaf siyasətinin yaratdığı reallıqdır. Bu reallıq işğaldan azad edilmiş ərazilərimizin ən qısa müddətdə Azərbaycanın ümumi enerji sisteminə qoşulmaqla, təchizatda oynayacağı roldan xəbər verir. "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su elektrik stansiyaları da daxil olmaqla bölgədə çox sayda elektrik infrastrukturunun tikintisi və bərpa olunması bir daha Azərbaycanın gücünü göstərir.

Ölkənin iqtisadi təhlükəsizliyinin ən vacib elementlərindən olan enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində görülmüş tədbirlər, aparılmış islahatlar elektrik enerjisinə tələbatı tam ödəməklə, Azərbaycanın həm də elektrik enerjisi ixracatçısı kimi potensialını gücləndirir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

***Tərtər***

# Şükürbəyli–Cəbrayıl–Hadrut yolunun çəkilişi yekunlaşır

**Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində dövlətimizin başçısının tapşırığı ilə icra olunan yol infrastrukturu layihələrindən biri olan Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun tikintisi işləri sürətlə davam etdirilərək yekunlaşdırılır.**



Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən bildirilib ki, başlanğıcını Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun Cəbrayıl rayonu Şükürbəyli kəndindən keçən hissəsindən götürməklə Xocavənd rayonunun Hadrut qəsəbəsinə qədər uzanan yolun uzunluğu 39,7 kilometrdir.

Avtomobil yolu 4 hərəkət zolaqlı olmaqla birinci texniki dərəcəyə uyğun inşa edilir. Yolun hərəkət hissəsi 14 metr, torpaq yatağının eni isə 21,5 metr təşkil edir.

Şükürbəyli–Cəbrayıl–Hadrut avtomobil yolunun 2, 19, 20, 27, 31 və 39-cu kilometrlik hissələrində 6 avtomobil körpüsünün inşası, suların ötürülməsini təmin etmək məqsədilə nəzərdə tutulan 39 dairəvi borunun, 9 düzbucaqlı su keçidinin, 49 ehtiyat borunun, yolun ətraf mühitə, o cümlədən faunaya mənfi təsirini azaltmaq məqsədilə 7 yolaltı keçidlərin, həmçinin zəruri yerlərdə beton və daş istinad divarlarının, avtobus dayanacaqların tikintisi layihə üzrə son mərhələdə aparılaraq yekunlaşdırılır.

Yol boyu torpaq işləri artıq 100 faiz icra olunub. Hazırda yol əsasının və çiyinlərin tikintisi, həmçinin 3 laydan ibarət yeni asfalt-beton örtüyünün döşənməsi işləri aparılır. Qeyd olunan işlər də son mərhələdə olmaqla icra olunur.

Tikinti işləri "İnşaat Norma və Qaydaları"nın tələblərinə əsasən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin birbaşa nəzarəti altında həyata keçirilir. Yolun tikintisinin bu ilin sonunadək yekunlaşdırılması planlaşdırılır.

Şükürbəyli–Cəbrayıl–Hadrut avtomobil yolu işğaldan azad edilmiş Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindən keçir. Avtomobil yolu Hadrut qəsəbəsi və Cəbrayıl şəhəri də daxil olmaqla həmin rayonların 20-yə yaxın yaşayış məntəqəsini əhatə edir.

**XQ**

# Daşkənddə Özbəkistan – Azərbaycan səhiyyə forumu

**Daşkənddə Heydər Əliyev Fondunun dəstəyi, Azərbaycan və Özbəkistan səhiyyə nazirliklərinin təşkilatçılığı ilə xalqımızın ümummilli lideri Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Özbəkistan–Azərbaycan Səhiyyə Dekadası" çərçivəsində səhiyyə forumu keçirilib.**





Forumun başlıca məqsədi hər iki ölkənin səhiyyə və tibb elmi sahəsində əldə olunan nailiyyətlər, tətbiq edilən innovasiyalar, səhiyyənin rəqəmsallaşdırılması, əhalinin sağlamlığının qorunması sahəsində görülən işlərin müzakirəsi və iki ölkənin həkim mütəxəssisləri arasında təcrübə mübadiləsi aparmaqdır.

Forumdan əvvəl iştirakçılar Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən foto sərgi və kitab kolleksiyası ilə tanış olub, filmə tamaşa ediblər.

Forumda çıxış edən Özbəkistanın səhiyyə naziri Amrillo İnoyatov səhiyyə sahəsində əməkdaşlıq çərçivəsində iki ölkə arasında sıx tərəfdaşlığın olduğunu vurğulayıb.

Azərbaycanın Səhiyyə naziri Teymur Musayev isə bildirib ki, 2023-cü il ölkəmizdə müasir Azərbaycanın memarı və qurucusu, ulu öndər Heydər Əliyevin və görkəmli alim və həkim, əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyevanın 100 illik yubileylərinin keçirilməsi ilə əlamətdardır.

Ulu öndər Heydər Əliyevin digər sahələrlə yanaşı, ölkəmizdə səhiyyənin də inkişafında misilsiz rolundan danışan nazir qeyd edib ki, böyük rəhbərin xüsusi diqqət və qayğısı sayəsində ölkəmizdə səhiyyənin inkişafı və əhalinin sağlamlığının qorunması sahəsində əhəmiyyətli nailiyyətlər əldə olunub.

Teymur Musayev deyib ki, qardaş ölkənin şirkətlərinin istehsal etdiyi 37 adda dərman vasitələri Azərbaycanda dövlət qeydiyyatından keçib. Bu ilin fevral ayında Daşkənddə birinci Azərbaycan–Özbəkistan Regionlararası Forum keçirilib, Şuşa-Xivə, Gəncə–Səmərqənd, Lənkəran–Buxara, Şəki–Kokand şəhərləri arasında qardaşlaşma haqqında sənədlər, Bakı və Daşkənd şəhərləri arasında əməkdaşlığa dair yol xəritəsi, Azərbaycan – Özbəkistan İnvestisiya Fondunun yaradılması haqqında Saziş qüvvəyə minib. Heydər Əliyev Fondunun dəstəyi ilə ümummilli liderin 100 illik yubileyi çərçivəsində Azərbaycanın Astara rayonunda keçirilən beynəlxalq konqresdə Özbəkistan nümayəndə heyəti də iştirak edib.

Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev ölkələrimiz arasında ikitərəfli münasibətlər və əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirib. Onun sözlərinə görə, hər iki ölkə rəhbərinin qarşılıqlı səfərləri bu dostluğun bariz nümunəsidir. Heydər Əliyev Fondunun nümayəndəsi Şamil Əzizov qurumun genişmiqyaslı fəaliyyətindən və səhiyyənin inkişafı üçün həyata keçirilən layihələrdən söz açıb.

Azərbaycan həkimlərinin adından çıxış edən Azərbaycan Tibb Universitetinin uşaq cərrahiyyəsi kafedrasının müdiri professor Ramiz Poluxov dekada çərçivəsində birgə icra edilən cərrahiyyə əməliyyatları, aparılan müayinələr və praktiki təlimlərin nəticələrindən danışıb.

Sonda, Özbəkistanda səhiyyənin inkişafında mühüm xidmətlər göstərən, dekada çərçivəsində cərrahiyyə əməliyyatları, tibbi müayinə və müalicələr aparan Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin həkim mütəxəssislərinin və tədbir təşkilatçıları mükafatlandırılıb.

*Zərifə HÜSEYNOVA*
*XQ*

# Göyçayda şəhid ailəsi ziyarət edildi



**Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev Vətən müharibəsi şəhidi Elvin Mikayılovun ailə üzvləri ilə görüşüb.**

Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev Vətən müharibəsində düşmən üzərində şanlı Zəfər qazanılmasından danışıb. O, şəhid ailələrinə, qazilərə dövlət tərəfindən göstərilən diqqət və qayğıdan bəhs edib, şəhidlərin əziz xatirəsinin qəlblərdə daim yaşayacağını diqqətə çatdırıb.

Görüşdə şəhid qəhrəmanlarımızın şərəfli döyüş yolundan danışılıb, onların xatirələri anılıb. Rayon rəhbəri şəhid ailəsinin qayğı və problemləri ilə maraqlanıb.

Şəhidin atası Nizami kişi onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

*İlqar HƏSƏNOV*
*XQ*

# Qarabağ bölgəsində sakinlərə tibbi xidmət davam etdirilir



**Ölkəmizdə rəsmi səfərdə olan Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə Regional direktoru Hans Henri Klugenin başçılıq etdiyi nümayəndə heyəti ilə Səhiyyə Nazirliyində keçirilən görüşdə təşkilatın Aİ-dəki nümayəndəsi Oksana Domenti, Azərbaycandakı nümayəndəsi və ölkə ofisinin rəhbəri Hande Harmançı, kommunikasiya məsələləri üzrə mütəxəssisi Roy Vaidaya iştirak ediblər.**

Səhiyyə naziri Teymur Musayev ölkəmizin Ümumdünya Səhiyyə Təşkilatı ilə qarşılıqlı əməkdaşlığa önəm verdiyini qeyd edib. O, Azərbaycanın nüfuzlu səhiyyə təşkilatı ilə sıx əməkdaşlığının hər il yüksələn xətlə inkişaf etdiyini vurğulayıb. Nazir ölkə başçısının tapşırığı ilə işğaldan azad edilmiş ərazilərdə yerli əhalinin tibbi ehtiyaclarının qarşılanması məsələsinin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı tədbirlərin həyata keçirildiyi də diqqətə çatdırıb. Qeyd edib ki, Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən Müvəqqəti İdarəetmə Mərkəzi bölgədə artıq müvafiq tibbi xidmətlərin təşkilinə başlayıb. Bu məqsədlə Xankəndiyə ixtisaslaşdırılmış tibbi heyət, təcili yardım briqadası ezam olunub.

Təşkilatın Avropa üzrə regional direktoru Hans Kluge təmsil etdiyi təşkilatın ölkəmizlə 30 ildən artıq uğurlu əməkdaşlıq etdiyini, Qarabağ bölgəsində yaşayan yerli əhaliyə psixoloji reabilitasiya ilə bağlı yardımların və digər zəruri tibbi xidmətlərin göstərilməsinə hazır olduğunu bildirib.

*Zərifə BƏŞİRQIZI*
*XQ*

Həkim məsləhəti

# Ədviyyat təkcə dad deyil, xəstəlikdən də qoruyur

## Payız-qış aylarında təbii əlavələrə tələbat artır

**Payız aylarında immunitetin sınağı başlayır. Hava –damcı yolu ilə yayılan viruslar artır. Hava soyuduğu üçün bədənin ehtiyatı azalır, insanlar qapalı yerlərdə çox toplaşır, cəmiyyətdə hazırda olduğu kimi qripli insanlar çoxalır.**



Payız-qış mövsümündə xəstəliklərə qarşı təbii immunomodulyator rolu oynayan müalicəvi ədviyyatlar həmişə gərəyimiz olub. Bununla bağlı mütəxəssislə – terapevt, ailə həkimi Aygün Kərimova ilə görüşdük. Həkim söhbətə ədviyyatlar barədə məlumatla başladı:

– Havalar soyuyanda istər xörəklərdə, istər çaylarda ədviyyatdan bol istifadə etmək lazımdır. Ədviyyatlar bitkilərin təzə, qurudulmuş və üyüdülmüş meyvən hissəsidir. Ədviyyat kimi istifadə edilən bitkilər ədviyyat və ətirli otlar olmaqla istifadə istiqamətinə görə 2 qrupa ayrılır: 1. Ətir və dadı daha da artırmaq üçün təzə və ya qurudulmuş halda şüyüd, reyhan, tərxun, nanə, cəfəri, keşniş, kəvər, turşəng, kərəviz, kəklikotu və digər otlardan istifadə edilir. 2. Qida məhsullarının ləzzətini artıran, təbabətdə və mətbəximizdə geniş istifadə edilən əsas ədviyyatlara mixək, darçın, qara istiot, zəfəran, sumaq, sarıkök, zəncəfil, cirə, razyana və digərləri daxildir.

Ədviyyatların tərkibində olan efir yağları, üzvi turşular, qlükozidlər və bir çox vitaminlər iştahanı artırır, maddələr mübadiləsini sürətləndirir, həzm sistemini normaya salır və qidanın yaxşı mənimsənilməsini təmin edir. Bitkinin toxumundan (xardal, cövüz), meyvəsindən (qara və qırmızı istiot, hil, cirə, razyana), çiçəyindən (zəfəran, mixək), yarpağından (dəfnə yarpağı və müxtəlif ətirli bitkilərin yarpaqları), qabığından (darçın), kökündən (zəncəfil, sarıkök) alınan ədviyyatlar vardır.

Ədviyyat alarkən istehlakçılar onların qablaşdırılmasına, etiketindəki məlumatlara, saxlanma şəraitinə xüsusilə diqqət etməlidirlər. Etiketdə məhsul haqqında zəruri məlumatlar – istehsalçının adı və ünvanı, malın adı, istehsal tarixi, xalis çəkisi, tərkibi, istehlak xassələri, saxlanma müddəti və s. mütləq əks olunmalıdır. Ədviyyatların quru, sərin, təmiz və yaxşı havalandırılan yerdə saxlanması şərtdir. Bu tip məhsullar daşınarkən, saxlanarkən sanitar-gigiyenik qaydalara, mal qonşuluğu prinsipinə ciddi riayət edilməlidir. Ədviyyat növləri rəflərdə kimyəvi maddələrin, kəskin qoxulu mal və məhsulların yanında saxlanılmamalıdır.

Həmsöhbətim ədviyyatların müalicəvi xüsusiyyətlərinə görə də geniş istifadə edilməsindən söz açdı:

– Ədviyyatların antioksidant və immun sisteminin gücləndirmək xüsusiyyəti var. Onların hər biri ayrı-ayrılıqda orqanizmin sağlamlığında mühüm rol oynayır.

**Çili bibəri.** – Tərkibində kapsoisin, piperin və allisin olduğuna görə, bibərin bu növü burun-udlaq və ağıza daxil olmuş viruslar və zərərli mikroorqanizmlərə mübarizdə effektiv təsirə malikdir.

**İstiot.** – Qara istiotun tərkibindəki zəngin mineral maddələr və vitaminlər immun sistemini gücləndirir, soyuqdəyməyə qarşı qoruyucu maneə yaradır. Həmçinin qara istiot orqanizmdə yağların parçalanmasını sürətləndirərək maddələr mübadiləsini yaxşılaşdırır, qanın laxtalanmasını tənzimləyir, xroniki yorğunluq əlamətlərini aradan qaldırmağa kömək edir.

**Sarımsaq.** – Təzə sarımsaq güclü antibakterial və virusəleyhinə vasitə olmaqla yanaşı, qanda xolesterinin miqdarını normallaşdırır, orqanizmdə maddələr mübadiləsini tənzimləyir. Sarımsaq orqanizmin yoluxucu xəstəliklərə qarşı müqavimətini artırmaq üçün olduqca faydalıdır.

**Qara zirə.** – Bu ədviyyat qısa zamanda müxtəlif infeksion xəstəliklərin qarşısını alan təbii immungücləndiricidir.

**Sarıkök.** – İmmun sistemin fəaliyyətini gücləndirməkdə sarıkökün mühüm rolu var. Sarıkök, nəinki orqanizmi toksin və şlaklardan təmizləyir, həm də təbii antibiotik kimi iltihabi prosesləri dayandırmağa kömək edir.

**Xardal.** – Zəngin tərkibə malik xardal antiseptik, antimikrob, göbələkəleyhinə, iltihabəleyhinə təsirə malikdir. Mədə-bağırsaq sistemi üçün, soyuqdəymə zamanı, oynaq xəstəliklərində olduqca faydalıdır. Həmçinin xardal beyndə qan dövranını stimullaşdırır, yaddaşı və zəkanı gücləndirir.

**Darçın.** – Bu ədviyyatın da bir çox xeyirli xüsusiyyətləri var. Darçın müxtəlif xəstəliklərə qarşı antiseptik, antimikrob və antiparazit vasitə kimi istifadə olunur. Həmçinin bədənin ümumi tonusunu artırır və immun sistemini gücləndirir. Həkim onu da xüsusi olaraq vurğuladı ki, ədviyyatların normadan artıq istifadəsi orqanizm üçün zərərlidir. Tərkibində yüksək təsir qabiliyyətinə malik olan alkaloidlər və qlükozidlər xüsusən də uşaqların və bir çox xəstəliklərdən əziyyət çəkənlərdə fəsadlar yarada bilər.

**Müsahibimiz əlavə olaraq, ədviyyatların saxlanma qaydasından və immuniteti gücləndirməyin digər fərqli yollarından da danışdı:**

– Onu da deməyi lazım bilirəm ki, ədviyyat növlərini bütöv halda saxlayıb, lazım olanda üyüdüb istifadə etmək daha faydalıdır. Onlar hermetik qablarda isti və rütubət olmayan, eyni zamanda, gün düşməyən yerdə saxlanmalıdır.

Bu tip məhsullar isti və rütubətə məruz qaldıqda ətrini, ləzzətini daha tez itirir. Xüsusən də onların heç bir növünü sobanın yaxınlığında saxlamaq məsləhət görülmür. Çünki normadan artıq temperatur ədviyyatların tərkibində olan efir yağlarını azaldır. Ümumiyyətlə, istehsal müddətindən və saxlanma şəraitindən asılı olaraq ədviyyatların istifadə müddəti yalnız bir il qəbul edilir.

Payız aylarında immuniteti başqa vasitələrlə də gücləndirmək mümkündür. Hava isti olmasa da açıq havada 2 saat gəzməyi təxirə salmayın. Soyuq aylarda yaydan fərqli olaraq, axşam daha tez yatın. Hormonları normal saxlamaq üçün ən geci axşam saat 11-dən səhər saat 8-ə kimi fasiləsiz yatmaq lazımdır.

İsti-soyuq su ilə duş almaq da bədəni möhkəmlədir. Əgər bunu edə bilmirsinizsə, hər gün ayaqlarınızı soyuq su ilə yuyun. Qida rasionuna vitamin və lif tərkibli tərəvəz, meyvə daxil edin. Alkoqol, çay, qəhvə, qazlı suların qəbulunu azaldın. Onlar ürəyi və böyrəkləri yüklədiyi üçün immuniteti aşağı salır. Menyuda zülal tərkibli qidalar – toyuq, hinduşqa, paxla, yumurtanı bol edin və ədviyyatla zənginləşdirin ki, onlar virus və mikrobların inkişafını ləngitsin.

*Z.BƏŞİRQIZI*
*XQ*

# Füzulidə məskunlaşma davam edir

## 22 ailəyə yeni evlərin açarları təqdim olundu



**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Növbəti köç karvanı ilə Füzuliyə çatan ailələrə mənzillərin açarları təqdim olunub.**

Dünən 22 ailə olmaqla, 62 nəfər Füzuli sakini doğma yurduna qovuşub. Füzuli şəhərinə çatan ailələr Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları tərəfindən böyük coşqu ilə qarşılanıblar.

Füzuli sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını ifadə ediblər.

Böyük Qayıdış proqramı çərçivəsində Füzuliyə qayıdan ailələr sevinc hissi ilə mənzillərinin açarlarını təhvil alıblar.

Bununla da Füzuli şəhərində 230 ailə olmaqla, 811 nəfərin daimi məskunlaşması təmin edilib. Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

*XQ*



Məmməd Araz – 90

# Şairlə iki görüşün tarixçəsi

**1983-cü il mart ayının 22-də, axşamüstü "Məmməd əmi" dediyim ən sevimli şairim Məmməd Araz sözümü yerə salmayıb bizə gəldi. Yaşadığımız Bayıl ərazisi bir gün qabaqdan qatı ağ dumana bürünmüşdü. Elə bu misraları da onda yazmışdım:**

*Sabah, sabah Məmməd Araz bizə gələcək,*
*Bütün günü duz çevirir başına duman.*

Bayram plovundan sonra dostların iştirakı ilə şairlə şirin söhbətimiz başladı.

**– Məmməd müəllim, "Azərbaycan – dünyam mənim" şeirinin yaranması barədə danışardınız. Necə oldu ki, o bənzərsiz, misilsiz şeiri yazdınız?**

– Nə bilim, vallah?! O şeirlə Azərbaycanın şəklini, coğrafi mənzərəsini verməyə çalışdım:

*Azərbaycan– qayalarda bitən bir çiçək,*
*Azərbaycan– çiçəklərin içində qaya.*

Mən o şeirə adi qoşqularımdan biri kimi baxıram.

**– Amma hər dəfə oxuyanda vətəndaşlıq hisslərimiz təzələnir, canlanır. Sizi ki, oxucular başa düşürlər, xoşbəxt adamsınız, Məmməd müəllim. Sizin "Dünya sənin, dünya mənim...", "Haqqın yoxdu, haqqın var", "İlhamım", "Mən yollarda öləcəyəm" və başqa sanballı, ləngərli şeirləriniz də çoxdur.**

– Mənə qalsa, "Sahibsiz qəbirlər" şeirini üstün tutardım, nəinki "Dünya sənin, dünya mənim..." kimi şeirləri... Hərənin öz fikri var. "Sənət yarışında, söz yarışında, Yüzümüz bir Sabir deyilik hələ", "Bir də azarkeşlər diliylə desək, Çoxumuz oynayır B qrupunda..." mənə daha doğmadır.

**– Siz yazmısınız: "Ürəyimsiz kəlmə yazan deyiləm". Biz oxucular sizin həmişə ürəklə yazdığınızı görmüşük. Əsasımız var, ona görə deyirik.**

– Belə olmağı yaxşıdı (gülür)...

Sonra şairdən şeir deməsini xahiş etdik. "Yadımda qalmayıb" – dedi. Şeirlərini bir-bir yada saldıq. "Sən", "Salamat qal", "Əlvida dağlar", "Ana torpaq, hər daşına üz qoyum", "Təklikdə çaylaq daşıyam" şeirlərini lentə aldıq. O vaxtadək şairin öz səsində bir şeiri belə yox idi. "III M.Araz Poeziya günü"nü keçirdiyimiz zaman – şairin 85 illiyində mən həmin şeirləri ictimailəşdirdim, radio və televiziya proqramlarına verdim.

2002-ci ildə birlikdə rayona anamın görüşünə gedəndə şair məftillərlə çəpərlənmiş həyətin taxta qapısını açıb, ikiotaqlı kiçik evi qəribə nəzərlərlə süzmüşdü. İndiyədək o baxışları unuda bilmirəm. "Bəlkə şairin uşaqlığı belə bir evdə keçib? Bizim ev kənddəki evlərini, uşaqlığını yadına salıb, yoxsa?" – deyə düşünmüşdüm. Bu haqda ondan, nədənsə, nə o vaxt, nə də sonralar heç nə soruşmadım. Uzun illərdən bəri xəstəliyinin acısını yaşayan şair çətinliklə də olsa, evə qalxıb, həyat yoldaşı Gülxanımla bərabər yaşlı anamla görüşmüş, həyətə düşüb qollu-budaqlı gilas ağacının altında süfrə arxasında əyləşmişdilər. O zaman Cənub televiziyası fürsəti qaçırmadı. Gəlib şairlə söhbətimizdən bir saatlıq veriliş hazırladı.

2004-cü ilin 1 dekabrında şair vəfat edəndən sonra elə həmin qış gilas ağacı qurudu... İbtidai məktəb təhsili belə olmayan anam bu gün də şairin şeirlərini deyir, onları zümzümə ilə oxuyur...

Çoxillik müsahibələrində görmüşdüm ki, gözəl bir poetik deyim Məmməd Arazı vəcdə gətirir, yerindən oynadırdı. Yaxşı əsər oxuyanda sevinc dolu həyəcanını boğa bilmirdi. İşdə otaqlarımız iç-içə idi. Bir dəfə məni səsləyib Ramiz Rövşənin yenicə dərc



olunmuş "Süd dişinin ağrısı" poemasını göstərərək heyranlıqla: "Zalım, gör, neyləyib e!.. Yaman yazıb!" deyə heyrətini bildirdi. Poema onu əməlli-başlı təsirləndirmişdi.

Ustad şair yeniliyə, gəncliyə açıq idi. Neçə-neçə cavan şairə "Uğurlu yol" yazmış, zəmanət vermişdi. 1991-ci ildə baş redaktoru olduğu "Azərbaycan təbiəti" jurnalının bir nömrəsini hazırlamağı mənə tapşırmasını xahiş edəndə (mən bu jurnalda çalışırdım) "yox" demədi. Jurnalın 2-ci sayına o, ön söz yazdı, mən son sözlə tamamladım. 30 illik publisistik fəaliyyətinin bəhrəsi olan "Sənətdə son mənzil olmur" kitabına ön söz yazmağı, uşaqlar üçün yazdığı "Şikayət dəftəri" kitabına redaktorluğu da mənə etibar etdi. Yazdığı şeirləri oxuyar, fikrimizi nəzərə alardı. Avtoqrafla verdiyi kitablarının birində yazmışdı: "Əminin şair oğlu, sərt tənqidçisi, etibarlı dostu Qardaşxana". Bu, mənim ən böyük sənət mükafatım oldu.

***Qardaşxan ƏZİZXANLI,***
***şair-publisist***

# Sumqayıt kitab sərgisində

## Nəşriyyat, yazar və oxucu üçbucağında təmaslar

**(əvvəli 1-ci səhifədə)**

**İlk müsahibimiz "Qədim qala" nəşriyyatının direktoru Şöhlət İxtiyaroğludur. O, həvəslə sərgi barədə fikirlərini bildirir:**

– Bizim də üzvü olduğumuz Azərbaycan Nəşriyyatları Assosiasiyası yarandığı qısa vaxtda 14 belə sərgi təşkil edib. Başlıca məqsəd yeni formatlarda kitab təbliğatını reallaşdırmaq, nəşrlərin hər bir oxucu üçün əlçatanlığını təmin etməkdir. Buna görə də satışdakı kitablara müxtəlif faizli endirimlər tətbiq edilir. Bir neçə ay əvvəl gənc oxucular arasında ilk dəfə təşkil etdiyimiz Yay



oxu marafonuna 3 min nəfər qoşulub. Həmin layihənin qaliblərini bu gün mükafatlandıracağıq ki, müəyyən motivasiya olsun. Eyni zamanda Payız oxu marafonuna bu sərgidə start veriləcək.

**– Bugünkü sərgidə kitablara oxucu marağından razısınızmı?**

– Sərgi yenicə açılsa da, alıcılar çoxdur. Yaşlı, orta və gənc nəsil oxucuların yeni nəşrlərə marağı fərəh doğurur. Bayaqdan fikir verirəm, heç kim buradan əliboş getmir.

Sərgi ilə tanışlığımızı davam etdiririk. Təşkilatçılardan öyrənirik ki, burada nəfis tərtibatlı yüzlərlə adda kitab 30–70 faiz endirimlə oxuculara təklif olunur. Satıcıların arasında tanınmış yazarlar, kitab müəllifləri də var. Qələm dostlarımız Elxan Elatlı, Rövşən Abdullaoğlu, İlham Qəhrəman, Xan Rəsuloğlu və başqaları sərginin işində fəal iştirak edirlər.

**Azərbaycan Ədəbiyyatı Fondunun baş direktoru, yazıçı Varis bizimlə söhbətində belə tədbirlərin təqdirəlayiq olduğunu vurğulayır:**

– Azərbaycanda kitaba, mütaliəyə marağın azaldığını söyləyənlər yanılırlar. Baxın, sərgiyə kiçikdən-böyüyə nə qədər oxucu gəlib. Hamının marağına və zövqünə uyğun, özü də güzəştli qiymətlərlə hər cür kitab var.

**"Göyərçin" jurnalının baş redaktoru, şair, filologiya elmləri doktoru Rafiq Yusifoğlu da söhbətə qoşulur:**

– Kitab bayramında tanınmış ədiblərin, mədəniyyət xadimlərinin iştirakı ilə təqdimatlar, imza saatları, konsert proqramları, şeir gecələri, ustad dərsləri, uşaqlar üçün nağıllar aləminə səyahətlər, debatlar və sair olacaq. Elə bu gün tədbirdə AYB Sumqayıt bölməsinin üzvləri oxucular qarşısında yaradıcılıq hesabatı verəcəklər. Bundan gözəl nə ola bilər?

**Yenicə aldığı kitablarla "Körpü" nəşriyyatının stendi qarşısında rastımıza çıxan yazıçı Hümbət Həsənoğlu da ürək sözlərini bizimlə bölüşür:**



– Belə sərgilər naşir və yazarların oxucularla birbaşa ünsiyyəti, mədəni tələbatla bağlı sosial sifarişlərin öyrənilib reallaşdırılması baxımından önəmlidir. Ötən il rəhbərlik etdiyim "Sumqayıt Dostlar Klubu" gənclər arasında ən çox kitab oxuyanların müsabiqəsini keçirmişdi. Bayaq stendləri gəzərkən "Kitab kafesi"ndə çalışan bir qız mənə dedi ki, müəllim, sizin müsabiqənin qaliblərindənəm. Doğrusu, onun sözlərindən məmnun oldum. Deməli, seçimi düz etmişik. Arzu edirəm ki, həmin qız kimi kitabsevərlərimizin sayı daha da çox olsun.



Çox keçmir ki, mədəniyyət sarayının 2-ci mərtəbəsində sərginin rəsmi açılış mərasimi başlanır. Dövlət himnimiz ifa olunur. Şəhidlərin xatirəsi 1 dəqiqəlik sükutla yad olunur. Sonra Azərbaycan Nəşriyyatları Assosiasiyasının sədri Şəmil Sadiq çıxış edərək belə satış-sərgilərin kitab maarifçiliyinə dəstək məramı daşıdığını, Elm və Təhsil, Mədəniyyət nazirliklərinin, müvafiq qurumların sərginin təşkilinə lazımi dəstək verdiklərini bildirir və hər kəsi kitab bayramında yaxından iştirak etməyə çağırır.

Daha sonra Abşeron–Xızı Regional Mədəniyyət İdarəsinin rəisi Fərid Qurbanzadə, Sumqayıt Şəhər İcra Hakimiyyətinin nümayəndəsi Fərman Kazımov və başqaları sərgi barədə ürək sözlərini söyləyirlər. Əlvan musiqi proqramı təqdim olunur.

Sərgidə dərs vəsaitlərinə, bədii ədəbiyyata, sosioloji nəşrlərə maraq daha böyükdür. Sumqayıtdakı 3 nömrəli peşə liseyinin şagirdləri könüllülər qismində sərgiyə gələnlərə bələdçilik edirlər.

Onu da deyək ki, kitab bayramı təkcə nəşriyyatların məhsullarının satışı ilə məhdudlaşmır. Həvəskar ustaların düzəltdikləri bəzək əşyalarının, gənc rəssamların çəkdiyi tabloların nümayişi sərgiyə əlavə rəng qatır.

Üç gün davam edəcək sərgidə assosiasiya rəhbərliyinin "STEAM əsaslı təhsil" mövzusunda çıxışı, dilçi alim Rafiq İsmayılov, şair-pedaqoq Zahid Xəlil və professor Qulu Məhərrəmlinin "Oxu bacarığı: dil bilgisi, yoxsa intellekt göstəricisi?" panelində iştirakları da nəzərdə tutulur.

***Əli NƏCƏFXANLI***
***XQ***

Yeni nəşrlər

# Türk dövlətlərinin iqtisadi birliyinin nəzəri əsasları

## Bu fundamental tədqiqatı 7 dövlətin 35 müəllifi ərsəyə gətirib

**Bu günlərdə türk dövlətlərini bu ölkələrin qarşılıqlı əməkdaşlıqları nəzərə alınmaqla bir platformada iqtisadi cəhətdən xarakterizə edən "Türk dövlətləri iqtisadiyyatı" adlı kitab çapdan çıxıb. Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Macarıstan və Türkmənistanın iqtisadiyyatlarını əhatə edən nəşr türk dünyası tarixində ilk sistemli fundamental elmi əsərdir.**

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) və Türk Dövlətləri Təşkilatı (TDT) Katibliyinin birgə nəşr etdirdiyi "Türk dövlətləri iqtisadiyyatı" kitabı müasir qloballaşma dövründə türk dünyasının iqtisadi birliyinin elmi-nəzəri əsasları kimi xüsusi əhəmiyyət kəsb edir. Qloballaşma və antiqloballaşma kimi cərəyanların kəskin mübarizəsi şəraitində, dünya dövlətlərinin türk dünyasına və İslam aləminə birmənalı münasibət bəsləmədiyi indiki zamanda yuxarıda sadalanan 7 dövləti təmsil edən 35 müəllifin iştirakı ilə belə bir fundamental əsərin ortaya qoyulması olduqca mühüm önəm daşıyır. Əsas təşəbbüskarı və aparıcı dövləti Azərbaycan və Türkiyə olan TDT-yə üzv ölkələrin iqtisadi birliyi və sürətli inteqrasiyası dövlət başçıları tərəfindən hər zaman ən ümdə vəzifə kimi qarşıya qoyulur. İİTKM-in təşəbbüsü ilə "Türk dövlətləri iqtisadiyyatı" adlı zəngin bir kitabın hazırlanması da məhz dövlət başçısı cənab İlham Əliyevin türk dünyasının birliyi istiqamətində verdiyi tapşırıqlardan, qarşıya qoyduğu vəzifələrdən irəli gələn bir zərurətdir.

Türkiyədə fəaliyyət göstərən "Nobel" akademik nəşrlər şirkəti tərəfindən nəşr edilən "Türk dövlətləri iqtisadiyyatı" əsəri ilkin olaraq 2023-cü il sentyabrın 15-də Türkiyənin İstanbul şəhərində keçirilən İqtisadi Əməkdaşlıq üzrə İşçi qrupun 14-cü görüşündə təqdim olunub. Sentyabrın 25-də isə İİTKM-in evsahibliyi ilə TDT-nin Baş katibi Kubanıçbek Omuraliyevin, türk dövlətlərinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirlərinin, ölkəmizin bir sıra tanınmış elm adamlarının, eləcə də azərbaycanlı müəlliflərin iştirakı ilə "Türk dövlətlərinin iqtisadiyyatı" kitabının təqdimat mərasimi keçirilib.

Göründüyü kimi, kitab yalnız Azərbaycanda deyil, bütün türk dünyasında müsbət rezonans yaradıb. Adıçəkilən dövlətlərin aparıcı beyin mərkəzləri tərəfindən birgə hazırlanan nəşr türkdilli dövlətlər arasında iqtisadi əlaqələrin genişləndirilməsi, nəqliyyat-tranzit, investisiya, "yaşıl" iqtisadiyyat, iqlim dəyişikliyi ilə bağlı məsələlər, rəqəmsallaşma və müasir tələblərə uyğun tərəfdaşlığın inkişafı baxımından faydalı bir mənbədir. İİTKM-in icraçı direktoru, iqtisad elmləri doktoru, professor Vüsal Qasımlının redaktorluğu ilə ərsəyə gələn, yeddi türk dövlətinin iqtisadi xarakteristikasını əks etdirən "Türk dövlətləri iqtisadiyyatı" kitabı türkdilli dövlətlərin iqtisadi əməkdaşlığını və bu əməkdaşlığın iqtisadi inkişafa təsirini dərindən araşdıran zəngin bir əsərdir. Kitabda bütövlükdə türk dünyasının iqtisadi vəziyyəti, türk dövlətlərinin birgə əməkdaşlığı, hər bir dövlətin türk dünyasında və regionda həyata keçirdiyi inkişaf strategiyası təqdim olunub.

Kitabın birinci fəslində türk dövlətlərinin iqtisadi əməkdaşlığının əsasları araşdırılır. Türk dövlətləri çərçivəsində formalaşan iqtisadiyyatın müxtəlif aspektlərinə, xüsusilə institusional əsaslara və tədbirlərə diqqət yetirilir, onların "World Vision - 2040" çağırışlarına uyğun iqtisadi mənzərəsi təsvir olunur. Bu fəsildə türk dünyası ölkələrinin iqtisadiyyatlarının mikro və makro səviyyəsi hərtərəfli və müqayisəli təhlil edilir. Həmçinin ölkələrin çoxtərəfli ticarət münasibətlərinin inkişafı ətraflı izah olunur. Kitabda türkdilli ölkələrə xarici investisiyanın cəlb edilməsi və ticarətə təsir edən "Qravitasiya modeli"nin tətbiqi oxucuların diqqətinə çatdırılır. Bundan əlavə, müəlliflər Zəngəzur dəhlizinin region ölkələrin iqtisadiyyatlarına təsirini və dəhlizin gələcək perspektivlərini təqdim edirlər.

Bu unikal əsərin ikinci hissəsində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Özbəkistan, Türkmənistan və Macarıstan iqtisadiyyatlarının türk dünyasındakı rolları kontekstində ölkələr üzrə təhlilinə diqqət yetirilir. Müəlliflər bir sıra iqtisadi amilləri, o cümlədən ticarət tendensiyalarını, investisiya modellərini, fiskal və monetar siyasətləri, ÜDM, adambaşına düşən ÜDM, PPP əsasında ÜDM, ÜDM-nin artımı, nəqliyyat və logistika sənayesini geniş təhlil edirlər. Bundan başqa, kitabda hər bir ölkənin türk dünyası ilə ticarət




əlaqələri araşdırılır, onların öz iqtisadiyyatlarına təsir edən regional və milli meqalayihələr dəyərləndirilir, digər türk dövlətləri ilə əməkdaşlıq və tərəfdaşlıq statusu tədqiq olunur. Kitabda hər bir ölkənin digər türk dövlətləri ilə gələcək potensial əməkdaşlıq istiqamətləri araşdırılır, ayrı-ayrı ölkələrə xas iqtisadi mühitlər, ölkələrin türk dünyasındakı əhəmiyyəti, regional və qlobal əməkdaşlıq, həmçinin inkişaf imkanları haqqında maraqlı detallar geniş şəkildə tədqiq olunur.

Müəlliflər türk dövlətlərinin hər birinin son 10 ili əks etdirən iqtisadi dinamikasını, milli iqtisadiyyatların spesifik xüsusiyyətlərini təhlil edir və iqtisadiyyatın müəyyən sektorlarına təsir imkanlarını nəzərdən keçirirlər. Bu fəsildə türk dövlətlərinin qarşılıqlı iqtisadi münasibətləri, ixrac-idxal əməliyyatlarının statistikası və ticarət dövriyyəsi təhlil edilir. Kitabda qeyd edilir ki, son illər türk dövlətləri arasında iqtisadi əlaqələrin sürətli inkişafı və ticarət dövriyyəsində nəzərəçarpacaq artımlar müşahidə olunmaqdadır və bu artımların davamlı olacağı gözlənir.

Əsərdə xüsusilə vurğulanır ki, türkdilli ölkələr arasında həm çoxtərəfli, həm də ikitərəfli formatlarda strateji əməkdaşlıq əlaqələri qurulub və iqtisadi münasibətlər çərçivəsində dövlətlər arasında yüksək səviyyəli razılıqlar əldə olunub, müvafiq müqavilələr imzalanıb. O cümlədən, türk dünyası ölkələrinin investisiya mühitinin yaxşılaşdırılması, iqtisadiyyatın çiçəklənməsi, qarşılıqlı iqtisadi-siyasi əlaqələrin sürətlə dərinləşməsi və dünya dövlətləri arasında ən mühüm ticarət yolunun sahibinə çevrilməsi hədəfini reallaşdırmaq üçün atılan addımlar da müzakirə edilib.

Kitabda Zəngəzur dəhlizinin türk dövlətləri üçün yeni imkanlar açdığı, ölkələr arasında ticarət dövriyyəsinin və beynəlxalq logistika sahəsində əməkdaşlıq imkanlarının genişləndirilməsi öz əksini tapıb. Zəngəzur dəhlizinin açılması türk dünyası ölkələri arasında ticarət dövriyyəsinin və eləcə də beynəlxalq yükdaşımaların həcminin artırılması üçün yeni imkanlar yaradacaq. Həmçinin türkdilli ölkələri iqtisadi baxımdan birləşdirməklə yanaşı, regionun strateji əhəmiyyətini daha da artıracaq.

Müəlliflər "Türk dövlətləri iqtisadiyyatı" kitabında türkdilli dövlətlərin iqtisadi inkişaf dinamikasını, perspektivlərini, davamlı inkişaf və regional inteqrasiya imkanlarını hərtərəfli şəkildə oxuculara izah edirlər. Türk dünyası dövlətləri arasında iqtisadiyyat, ticarət, nəqliyyat və enerji sahələrində əməkdaşlıq proqramları həm tələbələr, magistrantlar və siyasətçilər, həm də türk dünyası alimləri üçün əvəzolunmaz mənbə rolunu oynayır.

Bütün bunlarla yanaşı, kitab türk dövlətlərinin iqtisadi inteqrasiya və inkişaf axtarışlarında qarşılaşdıqları çətinlik və imkanların hərtərəfli təhlilini təqdim edir. Əsər regionun iqtisadi və sosial dinamikası haqqında məlumat verir və iqtisadi əməkdaşlıq və inkişaf məqsədinə nail olmağa kömək edə biləcək əsas strategiya və siyasətləri müəyyənləşdirir.

***Urxan ƏLƏKBƏROV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik***

# Yaxın Şərq: Kəssə hər kim tökülən qan izini...

**(əvvəli 1-ci səhifədə)**

Qeyd etmək lazımdır ki, son min ildə əvvəlcə Osmanlı imperiyası, son bir əsrdə isə Türkiyə Cümhuriyyəti Yaxın Şərqin taleyində mühüm rol oynayıb və bu proses davam edir. Aparıcı regional güc olaraq Ankaranın bu dəfə də prinsipial mövqe sərgiləyəcəyi gözlənilən idi. Necə deyərlər, uman yerdən küsərlər.



Yaxın Şərq o qədər qarışıb ki, burada davamlı sülhdən danışmaq belə cəsarət tələb edir. Türkiyə dövləti isə haqlı olaraq təklif və tələb edir ki, bölgəni son qərinələr və əsrlər boyu narahat edən problemlər ədalətlə çözülsün. Ankara, ilk növbədə problemi doğuran səbəbləri həll etməyə çağırır.

Bəli, Türkiyə rəsmiləri vasitəçilik missiyasını deklarativ məqsədlər üçün irəli sürməyiblər. Onlar bu missiyanın ağırlığının fərqindədirlər və adekvat səylər göstərirlər. Dövlət başçısı Rəcəb Tayyib Ərdoğan problemlə bağlı bir çox yaxın və uzaq dövlətlərdən olan həmkarları ilə müzakirələr aparıb.

Türkiyənin xarici işlər naziri Hakan Fidanın da bu istiqamətdə gərgin səyləri göz önündədir. Qardaş ölkənin baş diplomatı son günlər bu məsələ ilə bağlı bir çox həmkarları ilə intensiv danışıqlar aparıb. Dünya Türkiyənin sülhyaratma səylərinin fərqindədir və buna böyük ümidlər bəsləyir.

Bu məqamda qeyd etmək lazımdır ki, Türkiyə Prezidentinin yeni komandası özünün xarici siyasət xəttində regionda və qlobal səviyyədə kəskin rəqabətdən sıx əməkdaşlığa üstünlük verməyə başlayıb. Bu məqamın özü də Türkiyənin sülhə Yaxın Şərqdə dəstək səylərinə, Ankaranın obyektivliyinə və qərəzsizliyinə etimadı yüksəldib.

Bakı Dövlət Universitetinin Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası kafedrasının müdiri, tanınmış siyasi şərhçi Aydın İbrahimov Yaxın Şərqdəki son hadisələri şərh edərkən maraqlı fikir söylədi. Dedi ki, o ölkələrdə siyasi iddialar qızışır və sabitlik pozulmağa başlayır ki, orada bir qayda olaraq milli təhlükəsizlik məsələləri arxa plana keçir.

Professorun sözlərinə görə, 7 oktyabr hadisələrindən əvvəl İsrailin ictimai-siyasi həyatı çox siyasiləşmişdi. Burada məhkəmə islahatlarına qarşı etiraz aksiyalarına bəzən hətta yüz minə yaxın insan çıxırdı. Bütün bunlar İsrailin digər idarəetmə qurumları ilə bərabər, ölkə kəşfiyyatının da "başını qatırdı".

Yeri gəlmişkən, İsrailin müxtəlif dörd hökumətində müxtəli vaxtlarda nazir postları tutan, məşhur keçmiş sovet dissidenti Natan Şaranski bugünlərdə internet televiziyalarının birinə eksklüziv müsahibəsində sözügedən etiraz aksiyaları ilə bağlı deyib ki, bu gün İsrail ictimaiyyəti başa düşür ki, böyük hədəfləri gözardı edəndə dövlət zəifləyir. Onun fikrincə, İsrail kəşfiyyatı son əlli ildə ən böyük uğursuzluğa düçar olub.

Paralel aparmalı olsaq deyə bilərik ki, son illər Ermənistanı çulğayan kəskin siyasi ehtiraslar və kütləvi etirazlar bu işğalçı ölkəni də çətin duruma salıb. Bu, əslində gözlənilən idi. Çünki otuz il ərzində Qarabağda tükürpədici vandalizm aktları törədən Ermənistan hakimiyyəti belə bir aqibətlə üzləşməli idi.

Lakin bu gün söhbət Yaxın Şərqdən, konkret olaraq isə terrorçu HƏMAS-la İsrail arasında amansız qarşıdurmadan gedir. Bu münaqişəni aşkar və gizli şəkildə körükləyən güclər mövcuddur, əlbəttə, onların adları və əməlləri də hər kəsə bəllidir. Amma Yaxın Şərqin qəddar silahlı toqquşmalara yox, sülhə ehtiyacı var. Çünki ən kövrək sülh belə qanlı müharibələrdən yaxşıdır.

Bəli, bu gün Yaxın Şərqdə nəyin bahasına olursa-olsun, qan tökülməsini dayandırmaq lazımdır. Bu, həm də mənəviyyat məsələsidir. Belə ki, hər gün hər iki tərəfdən dinc sakinlər, uşaq, qoca və qadınlar həlak olur. Bölgədə humanitar fəlakət yaşanır.

Böyük Azərbaycan mütəfəkkiri, şair-dramaturq Hüseyn Cavid özünün məşhur "Əmir Teymur" əsərində şair Kirmaninin dili ilə yazırdı:

**Kəssə hər kim tökülən qan izini,**
**Qurtaran dahi odur Yer üzünü.**

Nə qədər böyük uzaqgörənlik və humanistcəsinə deyilib!

Həqiqətən, bu gün Yaxın Şərqin davamlı sülhə və sabitliyə ehtiyacı var və Türkiyə dövlətinin bu sahədəki səyləri yalnız alqışa və dəstəyə layiqdir. Ümid edək ki, sonda hər şey yaxşı olacaq. Axı, ümid sonda ölür.

***Məsaim ABDULLAYEV***
***XQ***

## Ekspert rəyi



**Şahbaz ŞAMIOĞLU,**
**Bakı Slavyan Universitetinin professoru, siyasi şərhçi**

Son günlər Yaxın Şərqdə müşahidə edilən kəskin proseslərin qəfil baş verdiyi iddia olunur. Mən şəxsən bu fikirlə razı deyiləm. Hesab edirəm ki, bunları doğuran səbəblər var. Məntiqdən bildiyimiz kimi, səbəbsiz nəticə yoxdur.

Burada bir neçə səbəbi qeyd edəcəyəm. Oktyabrın 7-də HƏMAS-ın İsrail ərazisinə hücumundan dərhal sonra bu hadisələri şərh edərkən ABŞ-ın dövlət katibi Entoni Blinken qeyd etdi ki, münaqişəni törədənlərin niyyəti son vaxtlar Səudiyyə Ərəbistanı ilə İsrail yaxınlaşmasına mane olmaqdır.

Qeyd edək ki, rəsmi Ər-Riyad Təl-Əvivlə diplomatik əlaqələri qurduqdan sonra neft hasilatını artırmağı vəd etmişdir. Bu isə dünyanın enerji bazarlarında "qara qızıl"ın qiymətlərinin aşağı düşməsinə gətirib çıxara bilərdi. Hazırda büdcələrini neftdən gələn gəlirlərlə dolduran dünyanın bir çox böyük dövlətləri isə bunu qətiyyən istəmirlər.

İndi planetimizin bir çox regionlarında ağır silahlı qarşıdurmalar baş verir. İsraildəki son gərgin qarşıdurmalar isə beynəlxalq ictimaiyyətin diqqətini həmin savaşlardan yayındıra bilər. Məsələn, İrəvan baş verənlərdən yararlanmağa çalışır. Erməni terror təşkilatlarının HƏMAS-la sıx əlaqələri olduğu heç kəsə sirr deyil.

Bir çox imperialist dövlətlər kiçik ölkələr və xalqlar arasında lokal münaqişələr yaratmaqla öz iqtisadiyyatlarını dirçəltməyə cəhd edirlər və təəssüf ki, buna nail olurlar. Bu gün dünyanın ən çox silah satan dövlətlərindən biri Fransadır. Paris də Yaxın Şərqi qarışdırmaqda maraqlıdır. Bu məqamı da unutmaq olmaz.

HƏMAS-İsrail müharibəsi bir daha onu göstərdi ki, hazırda dünyanın ədalətli bir düzənə ehtiyacı var. Terrorla mübarizəni təkcə ayrı-ayrı dövlətlərin boynuna yıxmaq olmaz. Bu, bəşəri bəladır, ona qarşı birgə səylərlə və qətiyyətlə mücadilə etməyin vaxtı çoxdan çatmışdır.

Türkiyənin regionda sülhyaratma təşəbbüsünə gəldikdə isə, bunu yalnız alqışlamaq olar. Rəsmi Ankara Yaxın Şərqdə yeni münaqişə ocağının alovlanmasını arzulamır və prinsipial şəkildə bunun əleyhinə çıxır. Türkiyə regionda inkişaf, tərəqqi və təhlükəsizlik üçün çalışır.

# "Zəka sahibi"miz dünya birincisi oldu

## Yeni qadın şahmat ulduzu

**Son illər Azərbaycanın gənc şahmatçılarının adı dünyanın ən güclü zəka sahibləri sırasında hörmətlə çəkilir. Təqdirəlayiq haldır ki, şahmatçı qızlarımız da bu sahədə fərqlənməyi bacarırlar. 2 gün əvvəl İtaliyada 20 yaşadək qızların dünya birinciliyində Gövhər Beydullayeva böyük uğurla çıxış edərək fəxri kürsünün ən yüksək pilləsində yer alıb. Onu da qeyd edək ki, şahmatçı 2022-ci ildə dünya birinciliyinin qalibi adını qazanmaqla 20 yaşadək qızlar arasında qızıl medal alan ilk azərbaycanlı şahmatçı kimi tarixə düşüb.**

Əvvəlcə Gövhərin şahmatda atdığı ilk addımlara nəzər salaq. 2003-cü ildə Səudiyyə Ərəbistanının Əl-Zülfi şəhərində həkim-transplantoloq Kamran Beydullayevin ailəsində dünyaya göz açan Gövhər Beydullayeva 5 yaşadək həmin ölkədə yaşayıb və şahmatın sirlərinə də elə oradaca yiyələnməyə başlayıb. Ailəsi ilə Bakıya qayıtdıqdan sonra kiçik bacısı ilə birgə Həmkarlar İttifaqı Respublika Şahmat və Dama klubunda Əməkdar məşqçi Xanlar Allahverdiyevdən dərs alıb.

2013-cü ildə 10 yaşadək qızlar arasında sürətli şahmat üzrə qızıl, blitsdə gümüş medal qazanıb. 2014-cü və 2015-ci illərdə 12 yaşadək qızlar arasında Avropa birinciliklərində gümüş medallara sahib olub. 2017-ci ildə 14 yaşlı qızlar arasında qitə birinciliyinin qalibi olub.

2021-ci ildə 18 yaşadək qızlar arasında dünya kubokunun qalibi olmaqla yaşıdları arasında Fide dünya çempionatının onlayn Super Finalında iştirak hüququ əldə edib. Həmin ilin dekabr ayında keçirilən Super Finalda 10 oyundan 8 xal toplayaraq qalib adına layiq görülüb. Bir il sonra Sloveniyada Avropa çempionatında 11 oyundan 7 xal toplayaraq qadınlar arasında ən yüksək nəticə göstərib, həmçinin qadınlar arasında qrosmeyster adını qazanıb. 2019-cu ildə 16 yaşadək şahmatçılar arasında Dünya Şahmat Olimpiadasının qalibi, 2021-ci ildə Azərbaycanın qadınlardan ibarət millisinin heyətində Avropa çempionatının bürünc medalına sahib olub.



**Azərbaycanın titullu şahmatçılarından biri, Sumqayıt Olimpiya İdman Kompleksinin direktoru Zeynəb Məmmədyarova Gövhər Beydullayevanın dünya birinciliyində qızıl medal qazanmasının parlaq nailiyyət olduğunu bildirdi:** "Bu böyük qələbə Azərbaycan şahmat məktəbinin təntənəsidir. Azərbaycanlı bir qızın belə bir nüfuzlu yarışda qalib olması şərəflidir. Şahmat Federasiyasının qadın və sosial komissiyasının sədri olaraq regionlarda qızlar üçün yarışlar təşkil edirik. Arzum qızlarımızın bu intellktual idman növü ilə kütləvi şəkildə məşğul olmasına nail olmaqdır. İstəyirəm ki, onlar öz uşaqlarına da bu idman növünün sirlərini aşılasınlar. Karyeralarında şahmata yer ayırsınlar. Bir ölkənin, bir millətin inkişafı onun qadınının səviyyəsindən çox asılıdır. Əgər bir qadın güclüdürsə, onun ailəsi, övladları da güclü olacaq".

**Hazırda "Məmmədyarovlar Şahmat Məktəbi"nin direktoru vəzifəsində çalışan Zeynəb xanım son illər qızlarımızın şahmata marağının xeyli artdığını, uşaqlar arasında keçirilən yarışlarda artıq nəticələrdə də bunun öz əksini tapdığını dedi:** "Qadınlarımızın, qızlarımızın intellekt yarışında öndə olması məni sonsuz sevindirir. Cəmiyətimizin inkişaf etməsi, parlaq gələcəyimiz üçün qızlarımızın intellektual səviyyəsi yüksək olmalıdır. Bu gün Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva başda olmaqla Azərbaycan qadını dünya arenasında öz sözünü deyir. İntellektual idman növündə də sözümüzü deməyimiz o deməkdir ki, Azərbaycan xanımı yüksək səviyyəli zəka ustasıdır, ağıllıdır, hərtərəfli inkişaf edib. Son illər türk ölkələri – Türkiyə, Qazaxıstan, Özbəkistan şahmatda çox inkişaf edib. Turnir cədvəlinə baxanda bu ölkələrin qadın nümayəndələrinin xeyli irəlilədiyini görürük ki, bu da təqdirəlayiq haldır".

**Azərbaycan Şahmat Federasiyasının birinci vitse-prezidenti Faiq Həsənov milli komandanın üzvü Gövhər Beydullayevanın çox istedadlı şahmatçı olduğunu bildirdi:**

– Gövhər dünya, Avropa birinciliklərində müxtəlif yaş qrupları üzrə böyük nailiyyətlər qazanıb. Ötən il klassik şahmat üzrə dünya birinciliyinin qalibi olub. Yarışdan-yarışa əmsalını artırır. Ondan böyük nailiyyətlər gözləyirik.

**Faiq Həsənov son illər qızlarımızın şahmatda mühüm uğurlar əldə etdiklərini dedi:**

– Hindistanda ötən il keçirilmiş şahmat olimpiadasında qadın millimiz medal qazanmağa çox yaxın idi. Qadın yığmamız Avropa çempionatında 2 dəfə bürünc medal qazanıb.

Federasiya rəsmisi noyabr ayında Sloveniyanın Budva şəhərində keçiriləcək Avropa çempionatında millimizdən yaxşı nəticələr gözlədiklərini vurğuladı. O qeyd etdi ki, oktyabrın 22-də İngiltərədə dünya iddiaçılar turnirinə vəsiqə uğrunda yarışda millimizin əksər üzvləri çıxış edəcəklər. Azərbaycan Şahmat Federasiyası komandamızın hazırlığı ilə bağlı məqsədyönlü tədbirləri davam etdirir. Buyaxınlarda yığma Qubada təlim-məşqlərdə iştirak edib. Komandamızın hazırlığı yüksək səviyyədə davam edir.

Faiq müəllimin də qeyd etdiyi kimi, qadın millimizin potensialı böyükdür və onlardan təbii ki, yaxşı nəticələr gözləyirik. Amma dünyada qadın şahmatının inkişafı da gün-gündən yüksəlir, rəqabət artır. Zeynəb Məmmədyarovanın da vurğuladığı kimi, türk ölkələrində də bu sahədə nailiyyətlər çoxalır. Elə dünya birinciliyində Qazaxıstan yığmasının üzvlərinin böyük fəallıq nümayiş etdirmələrini xüsusi qeyd etməliyik. Belə ki, bu ölkənin komandasının 4 üzvü birinci yerin sahibi olan Gövhər Abdullayevadan sonra ilk 4 yeri tutublar.

***Leyla QURBANOVA***
***XQ***

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**

İncəsənət tarixi kafedrasında vakant kafedra müdiri vəzifəsini tutmaq üçün

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə istirak etmək istəyən namizədlər elan dərc olunduqdan sonra 1 ay müddətində aşağıdakı sənədləri təqdim etməlidirlər.

**1.** Rektorun adına ərizə.
**2.** Kadrlar uçotunun şəxsi vərəqəsi.
**3.** Tərcümeyi-hal.
**4.** Ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri.
**5.** Elmi və elmi-metodiki işlərin siyahısı.
**6.** Kafedra müdirinin müvafiq struktur bölmənin inkişafı ilə bağlı platforması.

**QEYD –** Müsabiqə elan olunan müəssisədə çalışan şəxslər ərizə ilə birlikdə yalnız 4-cü və 6-cı bəndlərdə qeyd olunan sənədləri təqdim etməlidirlər.

Ünvan – Bakı şəhəri, H.Əliyev prospekti 58.

***REKTORLUQ***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

tabeliyindəki idarələrə tələb olunan boya qatqılarının satın alınması məqsədilə

AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslərwww.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il oktyabrın 24-ü saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: (012)404-37-00, daxili:1177

Ünvan-AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

qeyd olunan kafedralar üzrə professor və dosent vəzifələrinə seçilmək üçün

MÜSABİQƏ ELAN EDİR

Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrası üzrə professor – 1 ştat, dosent – 1 ştat.

Xarici dillər mərkəzi üzrə dosent – 1 ştat.

Riyazi analiz kafedrası üzrə dosent – 1 ştat.

Cəbr və həndəsə kafedrası üzrə dosent – 1 ştat.

Analitik və üzvi kimya kafedrası üzrə dosent – 1 ştat.

Biologiya və onun tədrisi texnologiyası kafedrası üzrə dosent – 4 ştat.

Məktəbəqədər təhsilin pedaqogikası kafedrası üzrə dosent – 1 ştat.

Ümumi psixologiya kafedrası üzrə dosent -1 ştat.

Musiqi və onun tədrisi texnologiyası kafedrası üzrə dosent – 1 ştat.

Humanitar fənlər kafedrası (Şəki filialı) üzrə dosent – 1 ştat.

Riyaziyyat və kompüter elmləri kafedrası (Şamaxı filialı) üzrə dosent – 0,5 ştat.

Dil-ədəbiyyat və onların tədrisi texnologiyası kafedrası (Şamaxı filialı) üzrə dosent – 0,5 ştat.

Dillər, ədəbiyyat və onların tədrisi texnologiyası kafedrası (Ağcabədi filialı) üzrə dosent – 1 ştat.

Müsabiqədə iştirak etmək istəyənlərin sənədləri Azərbaycan Respublikası Prezidentinin 11 iyun 2019-cu il tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi adlar verilməsi qaydası haqqında əsasnamə"nin tələblərinə uyğun bu elan dərc olunan gündən başlayaraq 30 gün müddətində saat 9.00-dan 17.00-a qədər rektorun adına yazılmış ərizə ilə birlikdə ADPU-nun Elmi katibliyində qəbul edilir.

Əlaqə telefonu- (012) 498-19-04.
E-poçt: elmi_katiblik@adpu.edu.az
www.adpu.edu.az
Ünvan- AZ-1000 Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi 68.

***REKTORLUQ***

Xalq qəzeti

XQ

xalqqazeti.az

№ 224 (30340) 14 oktyabr 2023-cü il, şənbə

İdman xəbərləri

## Millimiz seçmə mərhələdə ilk qələbəsini qazanıb



**Futbol üzrə Azərbaycan millisi AVRO-2024-ün seçmə mərhələsində növbəti oyununu keçirib.**

"A. Le Koq Arena"da təşkil olunan matçda yığmamız 2:0 hesablı qələbə qazanıb. Oyunda hesab Toral Bayramovun vurduğu qolla 9-cu dəqiqədə açılıb. 45+4-cü dəqiqədə isə Ramil Şeydayev qazanılan penaltini dəqiq yerinə yetirib. Qarşılaşmanı Almaniyadan olan hakimlər briqadası idarə edib.

Beləliklə, millimiz seçmə mərhələdə ilk qələbəsini qazanıb. Bununla da F qrupunda yer alan komandamızın xallarının sayı 4-ə çatıb. 1 xalı olan Estoniya isə sonuncu pillədədir.

Qeyd edək ki, oktyabrın 16-da Azərbaycan yığması Tofiq Bəhramov adına Respublika stadionunda Avstriya ilə qarşılaşacaq.

## Boksçumuz finalda

**Monteneqronun Budva şəhərində keçirilən Avropa kuboku yarışında Azərbaycan boksçusu Malik Həsənov (63 kq) finala çıxıb.**



Azərbaycan təmsilçisinin rəqibinin – Ahmat Ştivinin (İsrail) döyüşdən imtina etməsi səbəbindən Malik Həsənov yarımfinalda döyüşmədən həlledici mərhələyə vəsiqə qazanıb. O, qızıl medal uğrunda İanus Karavan (Moldova) – Qabil Məmmədov (Rusiya) cütünün qalibi ilə mübarizə aparacaq.

## Yığmamızın 2 oyununun stadionu açıqlanıb

**Qadın futbolçulardan ibarət Azərbaycan millisinin UEFA Millətlər Liqasının C qrupunda keçirəcəyi növbəti iki oyunun məkanı müəyyənləşib.**




Oktyabrın 27-də səfərdə Farer adaları yığmasına qarşı millimizin oyunu Klaksvik şəhərindəki "Djupumyru" stadionunda, 31-də Monteneqro millisinə qarşı matç isə "Dalğa Arena"da təşkil olunacaq.

## "Procter&Gamble" atletlərimizi dəstəkləyəcək

**Paris Yay Olimpiya Oyunlarının beynəlxalq tərəfdaşı "Procter&Gamble" şirkəti Azərbaycan milli komandasının bu oyunlarda iştirakını dəstəkləyəcək.**



Bununla bağlı qlobal şirkət Milli Olimpiya Komitəsi (MOK) və Milli Paralimpiya Komitəsi (MPK) ilə müqavilə imzalayıb. "Procter&Gamble" şirkətinin Qafqaz və Orta Asiya respublikaları üzrə baş direktoru İrakli Qabriadze, MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə və MPK prezidenti Hidayət Abdullayev müqaviləyə imza atıblar. İmza mərasimində tərəflərin rəhbərlik və təmsilçiləri, idmançılar və media nümayəndələri iştirak ediblər.

"Procter&Gamble" şirkəti Azərbaycanı təmsil edən idmançıların Olimpiya və Paralimpiya oyunlarında iştirakını təmin etmək üçün müqavilə çərçivəsində müəyyən öhdəliklər yerinə yetirəcək.

Müqaviləyə əsasən, şirkət 13 paralimpiyaçı və 12 olimpiyaçı olmaqla, 25 atleti dəstəkləyəcək.

*Leyla SABİRQIZI*
*XQ*

Rəsm

# Arazqırağı bölgə "Rənglərin sehrində"



**Füzuli rayonunda Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunan "Rənglərin sehrində" adlı rəsm sərgisi keçirilib. Rəsm sərgisi Füzuli Rayon İcra Hakimiyyətinin və Füzuli Rayon Mədəniyyət Evinin birgə təşkilatçılığı ilə Horadiz Muğam Mərkəzində təşkil olunub.**

Tədbirdə rayon rəsmiləri, müxtəlif idarə, müəssisə, təşkilatların kollektivləri, ziyalılar, şəhid ailələri, qazilər, məktəblilər, gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Sərgidə Füzuli rayon mədəniyyət müəssisələrinin dərnək üzvü olan həvəskar rəssamların 50-dən çox peyzaj, portret janrında, eləcə də naturadan çəkilmiş rəsm əsəri nümayiş olunub.

*XQ*

Elm

## Təbabət ömrü uzadır

**Biotibbi mühəndislik tədqiqatları tibbin inkişafında mühüm rol oynayır. XX əsrdə orta ömür uzunluğunun əhəmiyyətli dərəcədə artması bəşər tarixində baş vermiş ən böyük sıçrayışdır.**



1665-ci ildə Londonda yoluxucu xəstəliyə tutulanların 93 faizi ölürdüsə, 2000-ci illərdə bu nisbət 4 faizə enmişdir. Belə ki, mikroorqanizmləri öldürən bir sıra antibiotiklərin kəşfi yoluxucu xəstəliklərin yayılmasının qarşısını almışdır.

AMEA İnformasiya Texnologiyaları İnstitutunun əməkdaşı Zeynəb Bağırova qeyd edir ki, biotibbi mühəndislik tibb, fizika, kompüter elmləri və mühəndisliyin digər sahələri ilə sıx bağlıdır. Tibb müəssisələrinin kliniki fiziologiya, neyrofiziologiya, kardiologiya, reanimasiya və cərrahiyyə kimi bölmələrində biotibbi mühəndislər mühüm rol oynayırlar.

*XQ*

Texnologiya yenilikləri

## Kosmik gəmi asteroidə enəcək

**NASA Günəş sistemindəki ən bahalı asteroidə kosmik gəmi göndərir. "Psixeya" ("Psyche") adlı gəminin orbitə buraxılması 12 oktyabr üçün nəzərdə tutulsa da, hadisə hava şəraiti ilə əlaqədar 13 oktyabrda gerçəkləşib.**



Gəminin tədqiq edəcəyi asteroid dəmir və nikeldən təşkil olunan bir çox başqa qiymətli metallardan ibarətdir. Onların ümumi dəyəri 10 000 kvintilyon dollar təşkil edir.

Təxminən 280 kilometr eni olan asteroid Günəş sistemindəki ən böyük səma cisimlərindəndir. O, Yerdən təxminən 600 milyon kilometr məsafədə, əsas asteroid qurşağında yerləşir. 1852-ci ildə kəşf edilib.

Asteroidi araşdıracaq kosmik gəmi günəş panelləri, maqnitometr, spektrometr və asteroidin səthinin təsvirlərini köçürmək üçün xüsusi kamera ilə təchiz edilib.

Kosmik aparatın asteroidə 2029-cu ildə çatacağı gözlənilir, bu müddətdə o, ümumilikdə 3,5 milyard kilometr yol qət edəcək.

*FİDAN*
*XQ*




**"Azərbaycan Dəmir Yolları" QSC (ADY) Abşeron dairəvi dəmir yolu xətti üzrə pik saatlarda ictimai nəqliyyatda yaranan sərnişin sıxlığını nisbətən azaltmaq, eləcə də daha çox sərnişini qatarlarla təhlükəsiz və vaxtında mənzil başına çatdırmaq məqsədilə 13 oktyabr 2023-cü il tarixindən ekspres qatarının fəaliyyətinə start verilib.**

Xəbərdə qeyd olunur ki, oturacaq tipli vaqonlardan ibarət ekspres qatarı aralıq stansiya və dayanacaqlarda dayanmadan Bakıdan Sumqayıta və geriyə hərəkət edəcək. Qatar gün ərzində səhər və axşam saatlarında ümumilikdə dörd reys olmaqla sənişindaşımanı həyata keçirəcək.

Sonda bildirək ki, ekspres qatarı Slovakiyada əsaslı bərpa və modernizasiya olunmuş 5 vaqondan ibarətdir və gündəlik olaraq 1000-dən çox sərnişinin daşınması üçün imkan yaradacaq.

*XQ*

Sağlamlıq

## Keçi südü – həm qida, həm məlhəm

**Keçi südü inək südü ilə müqayisədə həm qida, həm də sağlamlıq baxımından faydalıdır. Bu süd vitaminlər (A, B2, B12 və D) kimi, minerallar (kalsium, fosfor, maqnezium) və zülal da daxil olmaqla vacib qidalarla zəngindir.**



İnsanlar keçi südünü inək südündən daha asan həzm edirlər. Bunun səbəbi, keçi südünün daha kiçik yağ hissəciklərinə və fərqli protein strukturuna (beta-kazein növü A2) malik olmasıdır. Bu süd inək südündən daha az laktoza (süd şəkəri) ehtiva edir ki, bu da həzmi asanlaşdırır.

Keçi südü inək südünə nisbətən daha az allergiya yaradır. Tərkibindəki selenium antioksidan xüsusiyyətlərə malik vacib mineral, kalium isə ürək sağlamlığı və qan təzyiqinin qorunması üçün vacibdir. Süddəki yüksək nisbətdə orta zəncirli yağ turşuları orqanizm üçün asanlıqla enerji toplayır.

Keçi südü tərkibindəki mineral, vitamin, zülal və digər maddələrə görə bağırsaq sağlamlığı və immunitet sistemini dəstəkləyir, sağlam sümükləri və dişləri qoruyur.

## Turpun özü də, yarpağı da...

**Turpun yarpağına çox vaxt əhəmiyyət verilməsə də, qidalı və çox lazımlı hissə imiş. Onun bir sıra sağlamlıq faydaları var və kulinariyada ondan istifadə edilir.**



Turp yarpaqları vitaminlər (C vitamini, K vitamini və A vitamini kimi), minerallar (kalsium, kalium və dəmir kimi) və pəhriz lifi də daxil olmaqla əsas qida maddələri ilə zəngindir. Bu qidalar ümumi sağlamlıq və rifah üçün çox vacibdir. Yarpaqlar oksidləşdirici stresslə mübarizə aparmağa və xroniki xəstəliklər riskini azaltmağa kömək edən C vitamini və beta-karoten kimi antioksidanları ehtiva edir. Tərkibindəki K vitamini kalsium mübadiləsində və sümük sağlamlığı üçün vacibdir. Pəhriz lifi müntəzəm qəbizliyin qarşısını alaraq həzmə kömək edir, həmçinin sağlam bağırsaq mikrobiomunu dəstəkləyir.

Turp yarpağı beta-karotin mənbəyidir və onu orqanizm yaxşı görmə və göz sağlamlığını qorumaq üçün vacib olan A vitamininə çevirir. C vitamini immuniteti gücləndirən xüsusiyyətləri ilə tanınır. Bədənin infeksiyalara qarşı müdafiəsinə kömək edir və dərinin sağlamlığı və yaraların sağalması üçün çox vacib olan kollagen istehsalına kömək edir. Bundan başqa, turp yarpağının tərkibindəki kalium qan təzyiqini də tənzimləyir.

*Z.HÜSEYNLİ*
*XQ*

HAVA

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən oktyabrın 14-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**




Lakin gecə və səhər yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Cənub-qərb küləyi əsəcək, səhər şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 8-13°, gündüz 16-21° isti olacaq. Atmosfer təzyiqi 766 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 40-50 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 8-13°, gündüz 19-24° isti, dağlarda gecə 1° şaxtadan 4°-dək isti, gündüz 7-12° isti olacaq.

*Q. QASIMOV*
*XQ*



## Dünyanın ən böyük oteli

**Malayziyanın paytaxtında yerləşən "First World Hotel" dünyanın ən böyük oteli kimi tanınır.**

Akvapark, ticarət və əyləncə mərkəzinə malik otelin sahəsi 46 min kvadratmetrdir. Otel kompleksində 7351 nömrə var. 2006-cı ildə rekord qıran bu obyekti 2008-ci ildə Las-Veqasda yerləşən Venesiya və Palazzo kompleksi böyüklüyünə görə üstələyib. 7 ildən sonra "First World Hotel" əlavə olaraq 1233 qonaq otağı ilə təchiz olunmaqla dünyanın ən böyüyü titulunu bərpa edib.

*L.QURBANOVA*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4818
SİFARİŞ 2625
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANLI

Çapa imzalanmışdır 00:00